HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV


# Vergilər

№ 19 (913) ■ 23 may 2018

www.vergiler.az

Qiyməti: 60 qəp.


# Serbiya Prezidentinin Azərbaycana rəsmi səfəri

**Mayın 21-də Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin Azərbaycan Respublikasında rəsmi səfərdə olub. Azərbaycan Prezidenti İlham Əliyev Serbiya Prezidenti Aleksandr Vuçiçi qarşılayıb. Hər iki ölkənin dövlət himnləri səsləndirildikdən sonra dövlət və hökumət nümayəndələri prezidentlərə təqdim olunub.**



Rəsmi qarşılanma mərasimindən sonra prezidentlərin təkbətək görüşü keçirilib. Görüşdə Azərbaycan ilə Serbiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, ölkələrimiz arasındakı əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirilib. Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş olub. Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, əlaqələrimiz çox uğurla inkişaf edir: «Biz dostuq, tərəfdaşıq, strateji tərəfdaşıq. Son illər ərzində əldə edilmiş uğurlar deməyə əsas verir ki, Serbiya-Azərbaycan əlaqələri bundan sonra da uğurla inkişaf edəcəkdir. Biz beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik, iqtisadi sahədə əməkdaşlıq aparılır. Əminəm ki, bu gün aparılan danışıqlar nəticəsində bu sahəyə də yeni təkan veriləcəkdir. Humanitar sahədə çox gözəl əməkdaşlıq var. Biz gələcəkdə energetika, nəqliyyat sahələrində daha fəal əməkdaşlıq edə bilərik. Bu məsələlərlə bağlı bizim fikirlərimiz var. Belə olan halda bizim münasibətlərimiz yeni mərhələyə, yeni pilləyə qalxacaqdır».

Səmimi qəbul üçün bir daha minnətdarlığını bildirən Serbiya Prezidenti Aleksandr Vuçiç qeyd edib ki, Azərbaycan bizim üçün dost ölkədir: «Bizim birgə görəcəyimiz işlər kifayət qədərdir. Azərbaycanın maraqları baxımından Serbiyada görüləcək bir çox işlər var. Eyni zamanda, bizim də burada görə biləcəyimiz işlər çoxdur. Düşünürəm ki, iqtisadiyyatımız gücləndikcə serb şirkətləri Azərbaycana cəlb oluna bilər».

Geniş tərkibdə görüş başa çatandan sonra hər iki prezidentin iştirakı ilə sənədlərin imzalanması mərasimi keçirilib. «Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı»nı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç imzalayıblar. «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Serbiya Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında» Anlaşma Memorandumu, «Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Serbiya Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında» Memorandumu, «Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında» Saziş, «Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında» Saziş, «Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında hava əlaqələri haqqında» Saziş imzalanıb.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç mətbuata bəyanatlarla çıxış ediblər. Dövlətimizin başçısı bəyanatında bildirib ki, Serbiya və Azərbaycan dostluq və strateji tərəfdaşlıq əlaqələrini inkişaf etdirir, beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birini dəstəkləyir: «Ölkələrimizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı ilə bağlı məsələlərdə bütün beynəlxalq təşkilatlarda bir-birimizi daim dəstəkləyirik. Üzləşdiyimiz münaqişələr beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkələrimizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri çərçivəsində öz həllini tapmalıdır. Bu məsələ ilə bağlı biz daim bir-birimizə qarşılıqlı dəstək göstəririk və bundan sonra da göstərəcəyik».

Serbiya Prezidenti Aleksandr Vuçiç isə bildirib ki, Azərbaycanla iqtisadi və energetika sahəsində əlaqələri artırmaq niyyətindədir: «Münasibətlərimizin təkmilləşdirilməsində bizim böyük potensialımız var. Bu yaxınlarda bizim hökumətlərarası komissiyanın iclası olacaqdır. Düşünürəm ki, müxtəlif nəqliyyat layihələrinin icrasında fəal əməkdaşlıq edə bilərik. Azərbaycan şirkəti Serbiyada yol tikintisində uğurla fəaliyyət göstərir. Bununla yanaşı, müxtəlif kənd təsərrüfatı məhsullarının alğı-satqısı sahəsində, mədəniyyət, idman və digər sahələrdə daha böyük nailiyyətlər əldə edə bilərik. Təbii ki, bizim hərbi-texniki və hərbi təhsil sahələrində də böyük potensialımız var».

Rəsmi tədbirlər başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin şərəfinə ziyafət verilib.

## Rəsmi xronika

■ Mayın 22-də Bakının Suraxanı rayonunda «ATEF Şirkətlər Qrupu»nun yüksəkgərginlikli avadanlıqlar zavodunun açılışı olub. Mərasimdə iştirak edən Prezident İlham Əliyevə zavodun fəaliyyəti barədə məlumat verilərək bildirilib ki, ümumi investisiya dəyəri 29,7 milyon manat olan zavodun yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 10 milyon manat güzəştli kredit ayrılıb.

Dövlətimizin başçısı istehsal prosesi ilə tanış olub. Bildirilib ki, ümumi sahəsi 18 min kvadratmetr olan zavod 7 istehsal sahəsindən - bərk izolyasiya, kabel və mis anod istehsalı, əritmə və ekstruziya, mexaniki emal, yığma və sınaq sahələrindən ibarətdir. Zavodda illik 5 min 300 ədəd müxtəlif növ elektrotexniki avadanlıqların, o cümlədən güc transformatorları üçün izolyasiya detalları, yüksəkgərginlikli vakuum və eleqaz tipli açarlar, ayırıcılar, torpaqlayıcılar, ölçü transformatorları, kabellər və transformator buraxılışında istifadə olunan digər hissələrin istehsalı mümkündür. Zavodda 310 yeni iş yeri açılıb.

■ Mayın 18-də Bakıda Yeni Azərbaycan Partiyasının yeni inzibati binasının açılışı olub. Açılış mərasimində iştirak edən Prezident İlham Əliyevə məlumat verilib ki, 2016-cı ilin iyununda inşasına başlanılan yeni binanın ümumi sahəsi 11 min kvadratmetrdir. Partiyanın yeni binası indi paytaxtımızın müasir və memarlıq baxımından göz oxşayan ən yaraşıqlı binalarından biridir.

Dövlətimizin başçısı yeni inzibati binanın rəmzi açılışını bildirən lenti kəsib, Yeni Azərbaycan Partiyasının qurucusu, ümummilli lider Heydər Əliyevin binanın foyesindəki abidəsinin önünə gül dəstəsi qoyub. Bildirilib ki, Yeni Azərbaycan Partiyasının yeni binasında Heydər Əliyev muzeyi yaradılıb. Muzeydəki müxtəlif fotostendlər, əyani vəsaitlər ulu öndər Heydər Əliyevin siyasi irsinin və zəngin dövlətçilik fəaliyyətinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Burada ümummilli lider Heydər Əliyevin Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bağlı gördüyü işləri əks etdirən fotoguşələr var.

■ Prezident İlham Əliyev mayın 16-da Bakı Ekspo Mərkəzində XXIV Azərbaycan Beynəlxalq Qida Sənayesi «World Food Azerbaijan 2018» və XII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı «Caspian Agro 2018» sərgiləri ilə tanış olub. Dövlətimizin başçısına bildirilib ki, ötən illə müqayisədə bu il «WorldFood Azerbaijan» və «Caspian Agro» sərgiləri həm iştirakçıların sayı, həm də ekspozisiya sahəsi baxımından 12 faiz artım nümayiş etdirib. Sərgilərə dünyanın 34 ölkəsindən 402 şirkət qatılıb və bu şirkətlərin 70 faizini xarici, 30 faizini isə yerli istehsalçı və distribütorlar təşkil edir. Bu ölkələrin ticarət və sənaye palatalarının dəstəyi ilə şirkətlərin böyük milli qruplar ilə iştirakı sərginin vizit kartına çevrilib.

Pezident İlham Əliyev sərgidə xüsusi pavilyonla təmsil olunan Gürcüstan, İtaliya, Rusiya, Belarus, Yunanıstan, Latviya, Hollandiya və Türkiyənin tanınmış şirkətlərinin qida və kənd təsərrüfatı üzrə şirkətlərinin məhsulları ilə də tanış olub.

# Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında olub

**Azərbaycan Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfər edib. Əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edən dövlətimizin başçısı abidənin ətrafında aparılan abadlıq və yenidənqurma tədbirləri ilə tanış olub.**



Sonra Prezident İlham Əliyev Naxçıvan «Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsinin birinci mərhələsinin açılışında iştirak edib. Dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının, şəhər Təmizləyici Qurğular Kompleksinin və Naxçıvan şəhər Qaraxanbəyli inzibati ərazi dairəsində 480 şagird yerlik 6 saylı tam orta məktəbin açılış mərasimlərində iştirak edib.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev səfər çərçivəsində Dövlət Sərhəd Xidmətinin Naxçıvan şəhər Qaraçuq ərazi dairəsində Əmiraslan Əliyev adına Sərhəd Dəstəsində yaradılan şəraitlə tanış olub. Bildirilib ki, qərargah və yataqxana binası üç mərtəbədən ibarətdir. Binada rabitə, xidmət, silah, yataq otaqları, mətbəx, əsgər və zabit yeməkxanası yaradılıb. İkinci mərtəbədə hərbçilər üçün 16 yerlik yataqxana, 48 yerlik əsgər yataqxanası və 4 yerlik zabit yataqxanası yerləşir. Burada ərzaq mağazası və əsgərlər üçün əlavə ləvazimatların satışı dükanı da hərbçilərə xidmət göstərəcək. Binada, həmçinin, ikiotaqlı 4 mənzil də var. Zastavanın texniki binasında əsgərlər üçün müasir səviyyədə hamam və camaşırxana, ərzaq, əşya və silah anbarları, avtomobillərin saxlanması üçün qaraj da yaradılıb. Ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb.

Prezident İlham Əliyev Naxçıvanda yerləşən Əlahiddə Ümumqoşun Ordusunun «N» saylı hərbi hissəsində yaradılan şəraitlə də tanış olub. Ali Baş komandana «ORBİTER-3B» pilotsuz uçuş aparatı təqdim edilib. Bildirilib ki, cəmi 28 kiloqram çəkisi olan bu aparatla 5500 metr maksimal hündürlükdə canlı yayımda gecə və gündüz şəraitində düşmən ərazisində havadan kəşfiyyat aparmaq, aşkar edilmiş hədəflərin koordinatlarını təyin etmək mümkündür. Sürəti saatda 93 kilometr olan aparatın maksimal uçuş məsafəsi 120 kilometr, uçuş müddəti isə 7 saatdır. Qarnizonun arsenalına yeni qəbul olunmuş 60, 82 və 120 millimetrlik minaatanlar üçün simulyator dəsti döyüş mərmilərini sərf etmədən, komplektində olan pnevmatik mərmilərlə praktiki atəş tapşırıqlarının yerinə yetirilməsi üçün təyin olunub. Komplektə 20 pnevmatik mərmi və 100 partlayıcı maddə daxildir. 82 millimetrlik minaatan batareyası üçün rabitə və avtomatlaşdırılmış idarəetmə dəsti 5 kilometr dərinlikdə hədəfin aşkar edilməsi, hədəf haqqında məlumatların avtomatlaşdırılmış idarəetmə sistemi ilə atəş mövqeyinə ötürülməsi və atış üçün hesabatların aparılması, 120 millimetrlik minaatan və 122 millimetrlik «D-30» haubitsalı artilleriya batareyası üçün rabitə və avtomatlaşdırılmış idarəetmə dəsti isə 15-20 kilometr dərinlikdə hədəfin aşkar edilməsi, hədəf haqqında məlumatların avtomatlaşdırılmış idarəetmə sistemi ilə atəş mövqeyinə ötürülməsi və atış üçün qurğuların hesablanmasına təyin olunub. «Su-25» hücum təyyarəsi gündüz və gecə, adi və mürəkkəb hava şəraitlərində yerüstü və hava hədəflərini məhv etmək və bilavasitə döyüş meydanında quru qoşunlarına dəstək vermək üçün yaradılıb. Saatda 1000 kilometrədək sürət yığan bu döyüş təyyarəsi 7 kilometrə qədər yüksəklikdə uça bilir. Dövlətimizin başçısı «S-125-2 TM» zenit-raket kompleksinin nəqliyyat doldurucu maşınının da texniki-taktiki göstəriciləri ilə tanış olub. Prezident İlham Əliyevə «SANDCAT» zirehli avtomobilinin taktiki-texniki göstəriciləri barədə də məlumat verilib. Müasir döyüş maşınlarından sayılan «BTR-82A» zirehli transportyor döyüş meydanında fəaliyyət göstərən piyadanın mobilliyini, silahlanmasını və müdafiəsini yüksəltmək, düşmənin canlı qüvvəsini, tank əleyhinə vasitələrini və yüngül zirehli texnikalarını məhv etmək üçün nəzərdə tutulur. Döyüş maşınında 30 millimetrlik top və 7,62 millimetrlik pulemyot quraşdırılıb. Burada nümayiş olunan «TOS-1A» ağır odatan yaylım atəş sistemi düşmənin tağım dayaq məntəqələrini, həmlə edən bölüklərini, artilleriya və minaatan batareyalarının atəş mövqelərini və marşda olan avtomobil kolonlarını məhv etmək iqtidarına malikdir. 220 millimetrlik sistemin 24 istiqamətləndiricisi var və maksimal atəş məsafəsi 6 min metrdir. «XRİZANTEMA-S» özüyeriyən tank əleyhinə raket kompleksi dinamik örtüklə təchiz edilmiş tankları, piyadaların döyüş maşınlarını və digər yüngül zirehli hədəfləri, fortifikasiya qurğularını və uzunmüddətli atəş nöqtələrini, alçaqdan uçan təyyarə və vertolyotları məhv etmək imkanlarına malikdir.

Sonra Prezident İlham Əliyev Əlahiddə Ümumqoşun Ordusunun «N» saylı hərbi hissəsinin yeni hərbi xəstəxanasının açılışında iştirak edib.


Şəffaflığın ən asan yolu - elektron qaimə-faktura...
səh. 2

Aksizsiz məhsullar - əhalinin sağlamlığı üçün təhlükə, dövlət üçün isə itki deməkdir
səh. 3

Cümhuriyyətin iqtisadi siyasət formulu: «Güclü sahibkarlıq - güclü dövlət»
səh. 4

Bələdiyyələr gəlir və xərclər sahəsində şəffaflığı təmin etməlidirlər
səh. 5

# Şəffaflığın ən asan yolu - elektron qaimə-faktura...

**Vergi qanunvericiliyinin tələblərinə əsasən, 2018-ci il yanvarın 1-dən etibarən bütün vergi ödəyiciləri təqdim edilmiş mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə elektron qaimə-faktura (e-qaimə-faktura) təqdim edirlər. E-qaimələrin tətbiqi uçot məlumatlarının qeydə alınması sahəsində dəyişikliklərə səbəb olmaqla, uçot-məlumat bazasında şəffaflığın artırılmasına və qeydiyyata alınmış əməliyyatların sayının əhəmiyyətli artımına gətirib çıxarıb.**

E-qaimələrin tətbiqinin həm vergi orqanları, həm də vergi ödəyiciləri üçün bir sıra üstünlükləri var. Bu, inzibatçılıq xərclərinin azaldılmasında, məlumat mübadiləsinin çevikliyinin artırılmasında və aparılan əməliyyatlar zamanı şəffaflığın yüksəldilməsində mühüm rol oynayır. Digər üstünlüyü isə mətbəə xərclərinin və vaxt itkisinin azaldılmasıdır. Bu sistemin tətbiqi nəticəsində birbaşa internet vasitəsilə real vaxt rejimində elektron qaimə-fakturanı hazırlayıb malın (işin, xidmətin) alıcısına təqdim etmək mümkündür.

Elektron qaimə-faktura sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşdirilməsi prosedurunun sadələşməsinə, operativliyin təmin edilməsinə, inzibatçılıq xərclərinin azaldılmasına, sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcəkdə vergi orqanları ilə yaranacaq fikir ayrılıqlarının qarşısının alınmasına xidmət edir. Sahibkarların bir-birlərinə təqdim etdikləri mallara görə qaimələrin elektron qaydada təqdim olunması vahid elektron baza formalaşdırır və bu, qarşılıqlı münasibətlərin hüquqi tənzimlənməsinə kömək edir.

Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti departamentinin əməkdaşı Emil Əzizlinin bildirdiyinə görə, 2018-ci ilin may ayına olan məlumata əsasən, cari ilin ötən dövrü ərzində ümumilikdə e-qaimə-fakturaların sayı 2 milyon 651 min 795 ədəd olub. Onlardan 2 milyon 421 min 745 ədədi Bakı şəhəri, 230 min 50-i isə ərazilərin payına düşür. Təqdim olunan e-qaimə fakturalar üzrə əməliyyatların məbləği 14,1 milyon manat təşkil edib.

Bununla belə, aparılan təhlillər vergi ödəyicilərinin e-qaimə-faktura tətbiqindən hələ də yayınmağa çalışdığını göstərir. Müstəqil ekspertlər də bu halları təsdiq edirlər.

### *Ödəyicilər dürüst uçot sistemi qurmaq istəmirlər*

Auditorlar Palatasının üzvü, sərbəst auditor Altay Cəfərov hesab edir ki, e-qaimələrin tətbiqi zamanı rast gələnən əsas məsələ vergi ödəyicilərinin dürüst uçotunun olmaması və düzgün mühasibatlıq qurmaq istəməmələri ilə bağlıdır. Ödəyicilərin bir-birinə mallar və xidmətlərə görə e-qaimə-faktura tələb etməmələri müəyyən nöqsanlar ortaya çıxarır. Ödəyici nə özü sənədi təqdim edir, nə də ondan mal alan şəxslərə e-qaimə-faktura təqdim etməsinə imkan verir. Hər iki tərəf dövriyyələrini gizlətmək üçün bu üsula əl atırlar. Çünki e-qaimə-faktura sayəsində vergi ödəyicisinin bütün fəaliyyəti, gün, ay, il ərzində apardığı əməliyyatlar öz əksini tapır. Həmin vergi ödəyiciləri qeyd olunan sənədin təqdim edilmədiyi halda, bunun vergi uçotuna sonrakı mənfi təsirini ya dərk etmir, yaxud dərk etmək istəmirlər.

E-qaimə-faktura təkcə vergi sahəsi ilə məhdudlaşmır: hazırda maliyyə, bank, sığorta və digər fəaliyyət sahələrinin elektron mühasibatlıq sistemləri yeni əsaslar üzərində qurulur, ödəniş sistemlərində dəyişikliklər baş verir, digər sahələrdə hesablaşmaların strukturu təkmilləşdirilir. Bütün bu amillər e-qaimənin tətbiqini labüd edir.

A.Cəfərovun dediyinə görə, hazırda bəzi ödəyicilərin mühasibləri olmadığı üçün onlar vergi bəyannamələrinin tərtib edilməsində özəl vergi məsləhətçilərinin xidmətində yararlanırlar. Mühasibatlıq üçün əlavə xərc lazım gəldiyindən, bir çox vergi ödəyicisi ondan imtina edir və bu, nəticədə onların vergidən yayınmasına səbəb olur. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxsin mütləq öz mühasibatlığı olmalıdır.

Bəs e-qaimə-fakturanın təqdim olunmaması təsərrüfat subyektlərində hansı problemlərə gətirib çıxarır? Ekspert qeyd edir ki, bu, vergidən yayınma hallarının artmasına və vergi ödəyiciləri arasında əməliyyatlar zamanı mübahisələrin yaranmasına səbəb olur. Bu baxımdan, e-qaimə-faktura ilə bağlı yaranan mənfi halların aradan qaldırılması üçün bəzi prosedurların asanlaşdırılmasına, ən əsası isə bazar sektorunda malların alışı ilə bağlı sadələşdirilmiş qaydaların tətbiq edilməsinə ehtiyac var. Vergi ödəyicilərinin daha geniş formada maarifləndirilməsi də zəruridir. Bu məsələdə vergi orqanları ilə yanaşı, maliyyə, audit, biznes qurumları, ictimai təşkilatlar birlikdə təşviqat xarakterli tədbirləri artırmalıdırlar.

### *Uçotun aparılmaması vergidən yayınmaya gətirib çıxarır*

İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin vitse-prezidenti, vergi məsələləri üzrə ekspert Radil Fətullayevin sözlərinə görə, ölkə ərazisində sənədsiz malların satılması qanuna ziddir: «Aydındır ki, hər bir mal ya ölkə ərazisində istehsal olunur, ya da xaricdən idxal edilir. Hər iki halda onlar qanuna müvafiq qaydada sənədləşdirilməlidir. Əgər satılan malın sənədi yoxdursa, deməli, o, ölkəyə ya qaçaqmal kimi gətirilib, ya da qanunsuz istehsala aiddir. Gəlir və xərclərin, həmçinin vergitutma obyektlərinin uçotunun aparılmaması vergidən yayınmaya gətirib çıxarır».

Hər bir vergi ödəyicisi sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı elektron qaimə-faktura verməyə borcludur. E-qaimə-faktura sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla, gələcəkdə vergi orqanları ilə yaranacaq fikir ayrılıqlarının qarşısını almağa xidmət edir.

### *Elektron qaimə-fakturanın tətbiq edilməməsi maliyyə sanksiyalarına səbəb olur*

Mövcud qanunvericilik elektron qaimə-fakturaların tətbiq edilməməsinə görə maliyyə sanksiyaları nəzərdə tutur. Vergi Məcəlləsinin 58.8-ci maddəsinə əsasən, səyyar vergi yoxlaması və operativ vergi nəzarəti zamanı vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-faktura sənədindən ən azı biri olmadıqda:

- alıcıya təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə alınmış malların 10% -i;
- ikinci dəfə yol verdikdə 20%-i;
- üç və daha çox dəfə yol verdikdə 40 %-i həcmində maliyyə sanksiyası tətbiq edilir.

Maliyyə sanksiyası elektron qaimə-faktura təqdim etməli olan yox, təhvil almalı vergi ödəyicisinə tətbiq edilir. Çünki qeyd edilən 3 sənəddən (malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturası) ən azı biri olmadıqda, maliyyə sanksiyası artıq həmin malların dəyərinə tətbiq olunur.

Vergi Məcəlləsinin 58.8-ci maddəsinə əsasən, vergi ödəyicisi tərəfindən təqdim edilən mallara (işlərə, xidmətlərə) görə elektron qaimə-fakturanın və elektron vergi hesab-fakturasının təqdim olunmamasına görə malı (işi, xidməti) təqdim edən vergi ödəyicisinə münasibətdə maliyyə sanksiyasının tətbiqi nəzərdə tutulmayıb.

**Elbrus CƏFƏRLİ**

**Elektron qaimə-fakturanın göndərilməsi qaydası**

Vergi ödəyiciləri elektron qaimə-fakturaları iki üsulla hazırlaya bilərlər. Birincisi, "Elektron imza"dan onlayn rejimdə istifadə etməklə. Ödəyici bu zaman, İnternet Vergi İdarəsinin (www.e-taxes.gov.az) "Onlayn kargüzarlıq və e-VHF" bölməsini seçərək "Elektron qaimə" altbölməsinə daxil olur və onlayn rejimdə elektron qaimə-fakturanı tərtib edərək digər vergi ödəyicisinə göndərir. İkinci üsul olan oflayn rejimdə vergi ödəyicisi e-qaimə-faktura tərtib etmək üçün xüsusi proqram təminatını ("Elektron Faktura Tərtibatı Proqramı – eFP") İnternet Vergi İdarəsinin "e-Qaimə-faktura" bölməsinin "Lazımlı proqramlar" altbölməsindən öz kompüterinə yükləyir, tələb olunan e-qaimə-fakturaları bu proqram vasitəsilə internetdən istifadə etmədən hazırlayır və paketləyir. Sonra paket faylını oflayn rejimdə "Asan DOC client" və ya "e-İmzalayıcı" proqramların biri vasitəsilə imzalayır. İstifadəçi paket faylını "Asan DOC" portalı vasitəsilə də imzalaya bilər. Sonda gücləndirilmiş elektron imza vasitəsindən ("Asan imza" və ya "Elektron imza") istifadə etməklə İnternet Vergi İdarəsinin "Onlayn kargüzarlıq və e-VHF" bölməsini seçib "Elektron qaimə" altbölməsinə daxil olur və imzalanmış "adoc" və ya "edoc" tipli faylı "Paket göndər" düyməsi vasitəsilə sistemə yükləyir. Yükləmə zamanı sistem tərəfindən e-qaimə-fakturalara unikal seriya və nömrələr verilir və qarşı tərəfin elektron qutusuna göndərilir.

**Dəqiqləşdirilmiş e-qaimə-faktura hansı hallarda hazırlanır...**

Elektron qaimə-fakturanın dəqiqləşdirilməsi o zaman həyata keçirilir ki, o, təqdim edildikdən sonra vergi tutulan dövriyyənin dəqiqləşdirilməsinə əsas verən hallar üzə çıxsın. Başqa sözlə, Vergi Məcəlləsinin 163-cü maddəsinə əsasən, əməliyyat qismən ləğv edildikdə, o cümlədən mal qismən geri qaytarıldıqda, əməliyyatın xarakteri dəyişdikdə, qiymətlər aşağı düşdükdə və s. hallarda qiymətləndirmə bazasında dəyişikliyin baş verdiyi hesabat dövründə dəqiqləşdirmə aparılır. Diqqət yetiriləsi məsələ odur ki, digər  elektron qaimə-fakturadan fərqli olaraq, dəqiqləşdirilmiş elektron qaimə-faktura alıcı tərəfindən ayın sonuna kimi təsdiq edilməzsə, həmin elektron qaimə-faktura proqram təminatı tərəfindən silinir və dəqiqləşdirilməmiş sayılır.

**E- qaimə-fakturanı qarşı tərəf təsdiq etmədikdə...**

Nazirlər Kabinetinin 89 saylı, 14 mart 2017-ci il tarixli "Elektron qaimə-fakturanın forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları"nın təsdiq edilməsi haqqında qərarının 3.9-cü bəndinə əsasən,  ƏDV ödəyicisi olan şəxslər tərəfindən elektron qaimə-faktura təqdim olunduqdan 5 (beş) gün müddətində hər hansı dəqiqləşdirilmiş əməliyyat aparılmadıqda, təqdim edilmiş elektron qaimə-fakturaya əsasən Vergilər Nazirliyinin proqram təminatı vasitəsilə həmin vergi ödəyicisi üçün avtomatik elektron vergi hesab-fakturası hazırlanaraq aidiyyəti üzrə təqdim olunur.

# Vergi sahəsində əməkdaşlığa dair beynəlxalq konfrans

Bu günlərdə Astana şəhərində Qazaxıstan Respublikasının Maliyyə Nazirliyinin Dövlət Gəlirlər Komitəsinin təşkilatçılığı, Çinin Dövlət Vergi Administrasiyası, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Vergi siyasəti və inzibatçılığı Mərkəzi və OECD-nin Vergi Forumunun dəstəyi ilə XI İqtisadi Forum çərçivəsində «Kəmər və yol təşəbbüsü» (KYT) - vergi sahəsində əməkdaşlıq konfransı keçirilib. 49 ölkənin 300-dən çox vergi orqanı əməkdaşının iştirak etdiyi tədbirdə kəmər və yol nəqliyyatının əhatə olunduğu ölkələrdə vergi yükünün təkmilləşdirilməsi, bu sahədə əməkdaşlığın gücləndirilməsi məsələləri müzakirə olunub.




Vergilər sahəsində qanunun aliliyi prinsipi, vergi ödəyicilərinə xidmət, mübahisələrin həlli, potensialın gücləndirilməsi üzrə 4 istiqamətdə davam edən konfransda çıxış edən natiqlər bildiriblər ki, iqtisadi qloballaşma fonunda kommersiya modellərinin bənzərliyi və vergi qanunvericiliyindəki fərqlilik «Kəmər və yol təşəbbüsü» çərçivəsində iqtisadi əməkdaşlıq üçün problemlər yaradır, KYT-nin ticarət və investisiya siyasətinə mane olur. Bu səbəbdən, qloballaşma vergi sahəsində əməkdaşlığın gücləndirilməsini zəruri edir. Qeyd olunub ki, kəmər və yol boyunca yerləşən ölkələrin məqsədi infrastruktur, maliyyələşmə, ticarət, investisiya və iqtisadi inkişafın təşviq edilməsində birgə fəaliyyət göstərməkdir. Vergi orqanları potensialın gücləndirilməsi prosesinin mərkəzində dayanır.

Çıxışlarda bildirilib ki, «Kəmər və yol təşəbbüsü»nə qoşulan ölkələrdə, müxtəlif iqtisadi şərait və mədəniyyətə malik olmalarına baxmayaraq, bu dörd istiqamət üzrə eyni problemlər mövcuddur və vergi administrasiyaları bu problemlərin aradan qaldırılması üçün səylərini artırmalıdırlar.

Tədbirdə Azərbaycan Respublikasını vergilər nazirinin müşaviri, Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru Ələkbər Məmmədov təmsil edib. Konfransın sessiyasında «Vergi ödəyicilərinə göstərilən xidmətlər - vergi inzibatçılığının lokomotivi rolunda» mövzusunda təqdimatla çıxış edən Ə.Məmmədov ölkəmizin vergi sistemində aparılan islahatlar, vergi ödəyicilərinə göstərilən xidmətlərin vahid standartları, xidmət kanalları, vergi ödəyicilərinin hüquqlarının müdafiəsi sahəsində görülən işlər haqqında ətraflı məlumat verib.

Konfrans çərçivəsində səmərəli vergi əməkdaşlığı mühitinin yaradılması, davamlı və sabit inkişaf üçün təcrübə, bilik və resursların cəmləşdirməsi və birgə mübadiləsi, konstruktiv əməkdaşlıq və koordinasiyanın gücləndirilməsi ilə bağlı qərar qəbul edilib.

## ƏRAZİ VERGİ ORQANLARINDA

- 3 saylı ƏVİ-nin nümayəndələri Regional Turizm İnformasiya Mərkəzində vergi ödəyiciləri ilə görüşmüşlər. İctimai iaşə, pərakəndə və topdansatış ticarət, istehsal fəaliyyəti ilə məşğul olan və yeni uçota alınmış vergi ödəyicilərinin iştirak etdiyi tədbirdə «Elektron qaimə-fakturanın tətbiqi və vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydaları», Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklər, «Dövlət rüsumu haqqında», «Nağdsız hesablaşmalar haqqında» Qanunun mahiyyəti barədə maarifləndirici-məlumatlandırıcı diskussiya keçirilmişdir. Tədbir çərçivəsində, həmçinin, «Açıq Hökumət» prinsiplərinin tətbiqinin genişləndirilməsi, korrupsiyanın qarşısının alınması üzrə yeni mexanizmlərin tətbiqi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin və ictimai nəzarətin gücləndirilməsi, sahibkarların hüquqlarının müdafiəsi və bir sıra digər mövzularla bağlı müzakirələr aparılmışdır. Sonda görüş iştirakçılarının sualları ətraflı cavablandırılmışdır.
- Şamaxı şəhərində fəaliyyət göstərən Avropa liseyində 4 saylı ƏVİ-nin əməkdaşları ilə «vergi dostları»nın görüşü keçirilmişdir. Görüşdə vergi sahəsində məlumatlandırma, maarifləndirmə və təbliğat işini genişləndirmək, bu sahəyə ictimaiyyətin geniş təbəqələrini cəlb etməyin əhəmiyyəti qeyd olunmuş, e-bəyannamələrin elektron formada göndərilməsi, «Online kargüzarlıq» sistemi, rüblük vergi bəyannamələrinin, hesabat formalarının və onların əlavələrinin tərtib edilməsi qaydaları, habelə «vergi dostları»nın fəaliyyətinin istiqamətləndirilməsi ilə bağlı məsələlər müzakirə olunmuşdur. Tədbir iştirakçılarının sualları cavablandırılmışdır.
- 6 saylı ƏVİ-nin əməkdaşlarının Yardımlı şəhər 2 saylı və Avaş kənd tam orta məktəblərinin şagirdləri ilə görüşündə vergilərin prinsipləri, dövlət büdcəsi, gəlirlər və xərclər barədə məlumatlar verilmiş, məktəblilərin vergi orqanlarının vəzifəsi və gördüyü işlərlə bağlı sualları cavablandırılmışdır. Cəlilabad şəhərində fəaliyyət göstərən 7 saylı tam orta məktəbdə də şagirdlərlə görüş keçirilmiş, məktəblilərə vergilərlə bağlı maarifləndirici məlumatlar verilmişdir.
- Masallı rayonunda fəaliyyət göstərən «vergi dostları» ilə 6 saylı ƏVİ-nin əməkdaşları arasında keçirilmiş görüşdə Vergi Məcəlləsinə edilən əlavə və dəyişiklər, Vergi Məcəlləsinin 220.10-cu maddəsində nəzərdə tutulan fəaliyyət növləri ilə fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan vergi ödəyiciləri tərəfindən sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbzin alınması zərurəti və qaydaları, rüblük vergi bəyannamələrinin, hesabat formalarının və onların əlavələrinin tərtib edilməsi qaydaları, «vergi dostu»nun vergi ödəyicilərinə əməli köməkliyin göstərilməsi və digər məsələlər ətrafında diskussiya aparılmışdır. Görüşdə, həmçinin, Vergilər Nazirliyi tərəfindən təsdiq olunmuş tədbirlər planları, vergi qanunvericiliyi, elektron xidmətlər, onlayn ödəmə, bəyannamələrin vaxtında təqdim edilməsi və vergi öhdəliklərinin yerinə yetirilməsi kimi məlumat xarakterli məsələlər müzakirə olunmuşdur.
- 12 saylı ƏVD tərəfindən Azərbaycan Dövlət Aqrar Universitetinin inzibati binasında müəllim və tələbələrlə görüş keçirilmişdir. ƏVD-nin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarəsinin nümayəndələri görüş iştirakçılarına vergi borclarının alınması, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarında işə qəbul qaydaları və digər məsələlərlə bağlı geniş məlumat vermişlər. Müəllim və tələbələrin vergi borclarının alınması, vergi ödəyicilərinin ölkədən getməsinin məhdudlaşdırılması və vergi cinayətlərinə qarşı aparılan mübarizə ilə bağlı sualları ətraflı cavablandırılmışdır.

# Aksizsiz məhsullar - əhalinin sağlamlığı üçün təhlükə, dövlət üçün isə itki deməkdir

MÜSAHİBİMİZ
VERGİLƏR NAZİRLİYİ YANINDA
VERGİ CİNAYƏTLƏRİNİN İBTİDAİ
ARAŞDIRILMASI DEPARTAMENTİNİN
BAŞ DİREKTORU XƏQANİ İSGƏNDƏROVDUR

***- Xəqani müəllim, son vaxtlar aksiz markası olmayan malların aşkar olunması istiqamətində nəzarət tədbirləri aktuallaşıb...***

- Uzun müddətdir ki, Vergilər Nazirliyi tərəfindən Bakıda və bölgələrdə pərakəndə ticarət müəssisələrində aksiz markasız və ya saxta aksizli məhsulların satışı hallarını müəyyən etmək məqsədilə monitorinqlər aparılır. Son bir ay ərzində bu tədbirlər bir qədər də intensivləşdirilib. Belə məhsulların ticarət şəbəkələrinə çatdırılma yolları və satıldığı əsas obyektlər əməliyyat tədbirləri vasitəsilə aşkarlanıb. Təəssüf ki, belə məhsulların satışının həyata keçirildiyi yerlər arasında əhalinin daha çox müraciət etdiyi satış məntəqələri və ixtisaslaşdırılmış ticarət obyektləri də var.

Aparılan nəzarət tədbirləri zamanı Nəsimi rayonunda yerləşən «24 saat», «Kral», «Yaşıl», «Yek», «Buta», «Azqranata», «Kübar», «№1», «24 saat» adlı mağazalarda aksiz markası ilə markalanmamış spirtli içkilərin və tütün məmulatlarının satılması müəyyən edilib. Qeyd olunan 9 mağazadan 26 min manatdan artıq məbləğdə aksiz markası olmayan tütün məmulatları və spirtli içkilər aşkar olunaraq götürülüb. Osman Akif oğlu Məmmədova məxsus «Kübar market»də, Çingiz Əlövsəd oğlu Rəfiyevə məxsus «Şərab evi №1»də və Fəxrəddin Cəbrayıl oğlu Məmmədova məxsus «24 saat» marketdə baxış keçirilərkən təsərrüfat subyektlərində külli miqdarda markalanmamış alkoqollu içkilərin və tütün məmulatlarının satış məqsədilə saxlanılması faktı aşkarlanıb.

Bundan başqa, ötən həftə ərzində Vergilər Nazirliyi yanında Vergi cinayətlərinin ibtidai araşdırılması departamentinin əməkdaşları tərəfindən Bakının Qaradağ və Xəzər rayonlarında, Xırdalan və Sumqayıt şəhərlərində yerləşən ticarət obyektlərində nəzarət tədbirləri keçirilib, külli miqdarda aksizsiz və saxta aksiz markası olan məhsullar aşkar edilib.

***- Aşkar olunan qanunsuzluqlarla bağlı hansı tədbirlər görülür?***

- Qeyd edilən malların satışı ilə məşğul olan və bu məhsulların satış şəbəkələrinə çatdırılmasını təşkil edən şəxslər saxlanılıblar və faktlarla bağlı cinayət işi başlanılıb.

Bu, ticarət şəbəkələrini saxta məsullarla, eyni zamanda aksiz markası olmayan tütün məmulatları ilə təhciz edən şəbəkənin aşkara çıxarılması istiqamətində vergi orqanlarının apardığı əməliyyat tədbirlərinin növbəti mərhələsidir. Bir məsələni xüsusi qeyd etmək istərdim. Vergilər Nazirliyi qanundankənar hərəkətlərə yol verən sadə satıcılarla deyil, mütəşəkkil cinayətkar qrupla, bütöv bir şəbəkə ilə mübarizə aparır. Vergi orqanları alkoqollu içkilərin və tütün məmulatlarının aksiz markası olmadan satışı ilə məşğulolma hallarının aradan qaldırılması, bu işi həyata keçirən cinayətkar şəbəkənin əsas üzvlərinin aşkar edilməsi və məsuliyyətə cəlb olunmasına çalışır. Nəzərinizə çatdırmaq istərdim ki, qanundankənar fəaliyyətlə məşğul olanlar qanunvericiliyin müddəaları çərçivəsində çox sərt şəkildə cəzalanacaqlar. Əsas məqsəd «kölgə iqtisadiyyatını» daraltmaq, aksizsiz malların satışını sıfır səviyyəsinə endirməkdir.

***- Cinayətkar şəbəkənin mövcud olduğunu bildirdiniz. Belə məlum olur ki, bu, tək-tək hallar deyil...***

- Əlbəttə... Avtobus dayanacaqlarındakı köşklərə, ticarət obyektlərinə və digər satış məntəqələrinə bu cür malların «ayaq açması» və onların həcminin hədsiz dərəcədə böyük olması göstərir ki, bu, bütöv bir cinayətkar şəbəkənin işidir və həmin şəbəkə çox geniş fəaliyyətdədir. Bu mallar müxtəlif cinayətkar qruplar tərəfindən qeyri-qanuni yollarla ölkəyə gətirilir və yaradılan «distribütor» şəbəkəsi vasitəsilə gizli yollarla ticarət şəbəkələrinə çatdırılır. Vergi və hüquq-mühafizə orqanlarının nəzarətindən yayınmaq məqsədilə belə «təchizatçı-distribütorlar» bir çox hallarda satıcılarla telefonla əlaqə yaradaraq, malı lazımi ünvanlara şəxsən çatdırırlar.

> Cinayətkar şəbəkədə birləşmiş belə işbazlar qeyri-qanuni məhsulların istehsalı, həmçinin qiymətli kağız hesab edilən aksiz markalarının saxtalaşdırılması ilə məşğul olur, dövlətin və cəmiyyətin mənafelərinə ciddi zərər vururlar

***- Cinayətkar qrup öz işini necə təşkil edir?***

- Bu məhsulların satışı üçün müxtəlif yerlərdə ayrıca satış köşkləri qurulur. Bir çox hallarda isə məhsullar ticarət şəbəkəsinin özündə deyil, yaxınlıqda saxlanılan nəqliyyat vasitələrində və gizli saxlanc nöqtələrində gizlədilir. Kollektiv surətdə, düşünülmüş sxem əsasında bir-biriləri ilə əlaqədə olan qrup üzvləri qanunsuz malı satış nöqtələrinə çatdırırlar.

Nəzərinizə çatdırım ki, belə məhsullar vətəndaşların sağlamlığı üçün təhlükə törətməklə yanaşı, qanuni fəaliyyət göstərən digər vergi ödəyicilərinə münasibətdə haqsız rəqabətə səbəb olur. Cinayətkar şəbəkədə birləşmiş bu cür işbazlar qeyri-qanuni məhsulların istehsalı, həmçinin qiymətli kağız hesab edilən aksiz markalarının saxtalaşdırılması ilə məşğul olur, dövlətin və cəmiyyətin mənafelərinə ciddi zərər vururlar.

***- Xəqani müəllim, məhsulun üstündə aksizin olmaması nə deməkdir?***

- Aksizlərin tətbiqi çoxfunksiyalı olmaqla yanaşı, həm də sağlamlığa zərərli malların istehlakının məhdudlaşdırılması məqsədilə tətbiq edilir. Aksiz markası olmayan və ya saxta aksizli məhsulları almaqla istehlakçı keyfiyyəti, istehsal və saxlanma şəraiti bəlli olmayan və sağlamlıq üçün zərərli məhsullar almaq təhlükəsi ilə üzləşir. Belə məhsullara aksizlərin tətbiqinin əsas məqsədlərindən biri onların istehlakına nəzarət etmək, sağlamlığa zərərli məhsulların qeyri-qanuni və keyfiyyətsiz istehsalının qarşısını almaq və istehsal mənşəyini müəyyən etməkdir.

***- Qanunvericilik belə məhsullar satanlar üçün hansı cəzalar və məsuliyyət tədbirləri nəzərdə tutur?***

- Aksiz markası olmadan malların istehsalı, idxalı və satışının həyata keçirilməsi inzibati və cinayət məsuliyyəti yaradır. Əgər belə məhsulların satışı halları az miqdarda (500 manatadək) aşkar edilərsə, bu zaman inzibati cərimələr tətbiq olunur. İnzibati Xətalar Məcəlləsinin 229-cu maddəsinə əsasən, aksiz markası olmayan məhsulların az miqdarda satılmasına, satış məqsədilə saxlanılmasına və ya istehsal binasının hüdudlarından kənara çıxarılmasına görə fiziki şəxslər 35 manatdan 40 manatadək, vəzifəli şəxslər 80 manatdan 90 manatadək, hüquqi şəxslər isə 200 manatdan 300 manatadək miqdarda cərimə edilir. Əgər belə məhsullar xeyli (500-2000 manat) və ya külli miqdarda (2000 manatdan yuxarı) aşkar edilərsə, bu zaman məsuliyyət Cinayət Məcəlləsi ilə tənzimlənir. Cinayət Məcəlləsinin 213-1.1-ci maddəsinə əsasən, aksiz markası ilə markalanmalı olan məhsulları xeyli miqdarda istehsal etmə, satma və idxala görə 2000 manatdan 3000 manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri, yaxud iki ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub. Eyni əməllər külli miqdar təşkil etməklə, eləcə də təkrar və qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə isə beş ilədək müddətə azadlıqdan məhrumetmə cəzası tətbiq edilir.

***- Aksizsiz mallar dövlət büdcəsindən vergilərin yayındırılmasına da gətirib çıxarır...***

- Aksizsiz və ya saxta aksiz markası ilə markalanmış məhsulların satışı, ilk növbədə, qaçaqmalçılığın və «kölgə iqtisadiyyatı»nın genişlənməsinə şərait yaradır. Bu sahədə nizam-intizamın yaradılması dövlət siyasətinin əsas istiqamətlərindəndir. Belə işlə məşğul olanlar anlamalıdırlar ki, aksizsiz malların satışını təşkil etməklə cinayətkar fəaliyyətin iştirakçısı kimi dövlət büdcəsinə ödənilən vergi və rüsumlarının da qarşısını almış olurlar.

***- Bu cür qanunsuzluqların qarşısını almaq üçün ictimaiyyət arasında maarifləndirmə işləri hansı rolu oynaya bilər?***

- Vergilər Nazirliyi öz səlahiyyətləri çərçivəsində bu sahədə nəzarət tədbirlərini davam etdirəcək. Lakin mübarizədə hamı birlikdə iştirak etməlidir. Bu məsələdə dövlət orqanları, o cümlədən vergi orqanı əməkdaşları ilə birlikdə cəmiyyətin hər bir üzvü maraqlı olmalıdır. Hər şeydən əvvəl, insanlar öz sağlamlıqları naminə saxta məhsulların satışına mane olmalı, belə hallara yol verənlər barədə müvafiq orqanları məlumatlandırmalıdırlar. İstər saxta aksizlərin, istərsə də digər cinayətlərin aşkara çıxarılmasında ictimaiyyət hüquq-mühafizə orqanları və digər təşkilatlarla birlikdə fəaliyyət göstərməlidir. Bu, olduqca vacibdir. Birlikdə fəaliyyət göstərərək daha sağlam və intizamlı cəmiyyətin qurulmasına töhfə verməliyik.

# Vergi ödəyicilərinin fərdi elektron qutusu

## Bu sistem vergi ödəyiciləri ilə vergi orqanları arasında effektiv elektron sənəd mübadiləsinə xidmət edir

Vergilər Nazirliyi uzun illərdir ki, müasir informasiya texnologiyalarından istifadə etməklə vergi inzibatçılığında rəqəmsal modernləşdirmə prosesini inkişaf etdirir. Vergi sistemində Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) tətbiq edilməsi daxili sənəd dövriyyəsinin, hesabat-məlumat sisteminin tam elektronlaşdırılmasına, elektron xidmətlərin, xüsusilə də e-kargüzarlığın inkişafına təkan verib. Elektron vergi hesab-fakturalarının, e-bəyannamə və «onlayn kargüzarlıq» sistemlərinin və digər xidmətlərin tətbiqi vergi ödəyicisinə bəyannaməni internet vasitəsilə təqdim etmək, onun tərtibinə və düzgünlüyünə nəzarət etmək, öz şəxsi vərəqəsinə «real vaxt» rejimində baxmaq imkanları verib. Bütün bu xidmətlərin mahiyyətini qıcasa olaraq belə ifadə etmək olar: vergi ödəyicisi öz fəaliyyəti ilə bağlı istənilən məlumatı istənilən yerdən əldə etmək və ötürmək imkanına malik olmalıdır.

Vergi orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması yeni rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsini tələb edir. Vergi inzibatçılığının rəqəmsallaşdırılması kumulyativ - hərtərəfli effektə malikdir. Texnologiyalar vergi qanunvericiliyinə könüllü əməletmə səviyyəsinin yüksəldilməsinin əsasıdır. Bu, cəmiyyət və dövlət arasında qarşılıqlı etimadı artırmağa, vətəndaş məmnunluğunu və bütün tərəflər üçün şəffaflığı təmin etməyə şərait yaradır.

Vergi ödəyiciləri ilə vergi orqanı əməkdaşları arasında birbaşa fiziki təmasların minimum səviyyəyə endirilməsi bu siyasətin mühüm tərkib hissəsidir. Vergilər Nazirliyinin «onlayn kargüzarlıq» sistemi vergi orqanı ilə sahibkar arasında ünsiyyəti məsafədən qurmaq baxımından xüsusilə əhəmiyyətlidir. Məlum olduğu kimi, hər bir vergi ödəyicisinə bu sistemdən yararlanmaq imkanı yaradılıb. Vergilər Nazirliyi ilə e-sənəd mübadiləsinə qoşulan hər bir vergi ödəyicisinə İnternet Vergi İdarəsində fərdi elektron qutu (e-qutu) yaradılır və ona qapalı zərfdə müvafiq istifadəçi kodu, parol və şifrə təqdim olunur.

Fərdi elektron qutu vergi ödəyiciləri ilə vergi orqanları arasında elektron sənəd mübadiləsinin effektivliyini artırır. Bu qutuya malik olan vergi ödəyicisi aşağıdakıları əldə edir:

- vergi orqanı ilə elektron yazışmalara keçən ödəyici üçün ənənəvi üsulla kağız daşıyıcılarında sənədlərin göndərilməsinə zərurət olmur, sahibkar vaxt və resurs itkilərinə məruz qalmır;

> Vergi ödəyicilərinin artıq böyük bir qismi e-qutunun üstünlüklərindən xəbərdardırlar və bu istiqamətdə məlumatlandırma və izahat işləri davam etdirilir

- e-qutunun tətbiqi sayəsində vergi ödəyiciləri vergi sisteminə aid istənilən məlumat tipli sənədi tez bir zamanda əldə edə bilmək imkanı qazanır;
- vergi ödəyicilərinə göndəriləcək sənədlər (uyğunsuzluq məktubları, bildirişlər, xəbərdarlıqlar, məlumatlar və s.) imzalanan kimi, avtomatik olaraq onun fərdi elektron qutusuna göndərilir;
- bu sistem üzərindən edilən bütün müraciətlər rəsmi sənəd statusuna malik olur. Vergi orqanından vergi ödəyicilərinə, eləcə də vergi ödəyicilərindən vergi orqanına ünvanlanan müraciətlər və verilən cavablar arxivləşdirilərək vergi ödəyicisinin fərdi e-qutusunda toplanır. Sahibkar istənilən vaxt bu cavablardan rəsmi statuslu sənəd olaraq istifadə edə bilər;
- vergi ödəyiciləri onlayn kargüzarlıq vasitəsilə etdikləri müraciətlərin vergi orqanı daxilində hərəkətini «real vaxt» rejimində izləyə və icraçının telefon nömrəsini öyrənərək onunla birbaşa telefon əlaqəsi yarada bilər;
- vergi ödəyiciləri öz aralarındakı yazışmalarda da e-qutudan istifadə edə bilərlər. Vergi orqanlarının istifadəçilərə və vergi ödəyicilərinin bir-birinə ünvanladıqları məktublar və cavablar həmin anda ünvana çatır, istifadəçilərə məxsus olan qutuya toplanır və məktublara internet vasitəsilə istənilən yerdə baxmaq mümkün olur.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin əməkdaşı Şahin Musabəyov vergi ödəyicilərinə mütəmadi olaraq «onlayn kargüzarlıq» sistemi vasitəsilə elektron qutularını yoxlamağı tövsiyə edir: «Vergi ödəyicisinin İnternet Vergi İdarəsinin «Onlayn kargüzarlıq» bölməsinə vergi orqanı tərəfindən göndərilən sənədin göndərilmə tarixindən 5 təqvim günü keçdikdə və sənəd oxunulmamış qalarsa, növbəti gün ona məktubun oxunulması barədə SMS göndərililir. Beləliklə, vergi ödəyicisi fərdi e-qutuda oxunulmamış məktubun olması barədə məlumatlandırılır. Vergilər Nazirliyi ilə e-sənəd mübadiləsinə qoşulan şəxslərlə yanaşı, gücləndirilmiş elektron imza, o cümlədən «ASAN imza» sahibləri də «onlayn kargüzarlıq» sistemindəki fərdi e-qutularından yararlana bilərlər».

Ş.Musabəyov elektron qutudan istifadənin vacibliyini belə izah edir: «Məsələn, vergi borcu barədə ödəyiciyə adi poçt vasitəsilə göndərilən bildiriş onun ünvanına gec çata və bununla da vergi öhdəliklərinin vaxtında yerinə yetirilməsində müəyyən ləngimələr yarana bilər. Həmin bildirişin e-qutuya göndərilməsi və vergi ödəyicisinin onu oxuması üçün isə cəmi bir neçə saniyə lazımdır. Bundan əlavə, bu sistemə müraciət edən bütün vətəndaşlar Vergilər Nazirliyinə göndərdikləri sənədin vergi orqanı daxilində hərəkətini «real vaxt» rejimində izləyə və icraçının telefonunu öyrənərək onunla birbaşa əlaqə yarada bilərlər. Xüsusilə qeyd etmək lazımdır ki, həmin sistem vasitəsilə vergi orqanına göndərilən bütün müraciətlər rəsmi status alır».

Bəs vergi ödəyicilərinin elektron qutulardan istifadə fəallığı necədir? Vergilər Nazirliyi yanında Kiçik Sahibkarlıqla iş Departamentinin Vergi ödəyicilərinin qəbulu və xidmət şöbəsinin rəhbəri Məmməd Quliyev son dövrlərdə fərdi elektron qutulardan istifadənin artdığını bildirir. Bununla belə, vergi ödəyicilərinin ümumi sayına münasibətdə proses qaneedici səviyyədə deyil. Onun sözlərinə görə, təcrübədə bəzən elə vergi ödəyicilərinə rast gəlmək olur ki, onlar elektron qutudan istifadəni mürəkkəb bir proses hesab etdiklərinə görə, bu xidmətdən yararlanmaq istəmirlər. Halbuki elektron qutudan istifadənin əsas prinsiplərini izah etdikdən sonra onların böyük əksəriyyəti bu xidməti artıq özlərinin vərdiş etdikləri elektron məktublarla müqayisə edərək, sistemin sadəliyini başa düşürlər. Fərdi elektron qutular müasir zamanda hər kəsin istifadə etdiyi məktublaşma servisləri qədər sadədir.

M.Quliyev bildirir ki, internetə çıxışı məhdud olan ödəyicilər Vergilər Nazirliyinin müxtəlif bölgələrdə yaratdığı vergi ödəyicilərinə xidmət terminallarından e-qutuya məlumat göndərə bilərlər: «Biz, həmçinin, müxtəlif üsullarla vergi ödəyicisinin e-qutusunda oxunmamış məktubların olması ilə bağlı məlumatın ona ötürülməsinə çalışırıq. Məsələn, vergi ödəyicisinin mobil telefonuna bu barədə mesajın göndərilməsi, yaxud onun elektron ünvanında xəbərdaredici işarənin yerləşdirilməsi və s. Başlıcası odur ki, vergi ödəyicilərinin artıq böyük bir qismi e-qutunun üstünlüklərindən xəbərdardırlar və bu istiqamətdə məlumatlandırma və izahat işləri davam etdirilir».

Beləliklə, vergi ödəyicilərinin fərdi elektron qutusunda oxunmamış sənədlər varsa, «onlayn kargüzarlıq» sisteminə daxil olmaqla göndərilmiş sənədlərlə tanış olmaları zəruridir. Bu sənədlərlə tanışlıq sahibkarların qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələrinin həyata keçirilməsində xeyli faydalıdır. Fərdi elektron qutudan istifadə etməklə sahibkar vergi orqanı əməkdaşları ilə təmas qurmadan, onlayn qaydada vergi öhdəlikləri ilə bağlı yaranmış bütün suallara cavab tapa, vergi orqanlarının suallarını cavablandıra, hər hansı uyğunsuzluqları dərhal aradan qaldıra bilər və beləliklə də vaxt və resurs itkilərinə məruz qalmaz.

**Elnurə ƏLƏSGƏROVA**

# Fakturaların əvəzləşdirilməsi

Vergi Məcəlləsinin 175.1-ci maddəsinə əsasən ƏDV-nin ödəyicisi tərəfindən alınmış elektron vergi hesab-fakturaları üzrə nağdsız qaydada ödənilmiş və əvəzləşdirilməli olan məbləğ ƏDV bəyannaməsinin 308-ci sətirində əks etdirilməklə yanaşı, bu məlumatlar İnternet Vergi İdarəsinin «Onlayn kargüzarlıq e-VHF» bölməsi vasitəsilə ƏDV bəyannaməsinin göndərildiyi gün ərzində vergi orqanına göndərilməlidir.

Bunun üçün vergi ödəyicisi www.e-taxes.gov.az internet səhifəsinə daxil olaraq, səhifənin sol yuxarı tərəfində yerləşən «giriş» düyməsini seçir. Açılan səhifədə vergi ödəyicisinə məxsus istifadəçi kodu, parol və şifrə daxil edilir və bölmə sətirində Onlayn kargüzarlıq və e-VHF seçilərək, «daxil ol» düyməsi sıxılmaqla sistemə daxil olunur. Açılan növbəti səhifədə e-VHf alt bölməsi seçilərək, Əvəzləşdirilənlər hissəsinə keçilir. Dövrü «seç» düyməsi sıxılmaqla açılan pəncərənin ilk xanasında əvəzləşdiriləcək fakturanın göndəriləcək bəyannamənin ili, dövr tipi xanasında əvəzləşdirilmə göndəriləcək bəyannamənin rüblük və ya aylıq təqdim edilməsi, növbəti xanada isə dövr tipi xanasına uyğun seçim edilərək, «qəbul» düyməsi sıxılır.

Daha sonra isə əvəzləşdiriləcək faktura məlumatları hissəsi doldurulur. Hesabat dövrü üzrə əvəzləşməyə təqdim edilən fakturanın seriya nömrəsi daxil edildikdə həmin fakturaya aid məlumatlar səhifədə avtomatik əks olunur. Sətir kodu xanasında əldə edilən fakturanın ƏDV-yə cəlb edilməsinə uyğun olaraq müvafiq kod seçilir. Ödənilmiş ƏDV-siz ümumi dəyər xanasında fakturanın ödənilmiş məbləği əks etdirilir və ona uyğun hesablanmış ƏDV məbləği ödənilmiş ƏDV xanasında avtomatik əks olunur. Daha sonra «daxil et» düyməsi sıxılmaqla əvəzləşəcək faktura daxil etdiyiniz son 5 əvəzləşəcək faktura siyahısında əks olunur. Əvəzləşməyə daxil ediləcək digər fakturalar da siyasıya eyni üsulla daxil edilir. «Təmizlə» düyməsini sıxmaqla əvəzləşəcək faktura məlumatları hissəsində əvəzləşməyə daxil ediləcək fakturanı silmək olar. «Baxış» düyməsini sıxmaqla açılan təsdiqləmə pəncərəsində «bəli» düyməsini seçməklə əvəzləşmə üçün təqdim edəcəyiniz fakturalara baxa bilərsiniz. Daxil etdiyiniz əvəzləşəcək faktura siyahısında hər hansı bir faktura məlumatını səhv daxil etmisinizsə, bu dövr üçün axtarış hissəsində həmin faktura üzərində düzəliş edə və ya onu silə bilərsiniz.

Bu əməliyyatı yerinə yetirmək üçün dövr üzrə axtarış hissəsində axtarış kriteriyasını və ona uyğun məlumatı müvafiq xanalara daxil edərək Axtar düyməsi sıxılır. Axtarışa uyğun əvəzləşdiriləcək fakturalar hissəsində görünən faktura üzərində müvafiq dəyişiklik edilir. Səhv daxil edilmiş fakturanı silmək üçün axtarışa uyğun əvəzləşdiriləcək fakturalar hissəsində görünən fakturanı silmək üçün «sil» düyməsi sıxılmalıdır.

Əvəzləşmə üçün daxil edilmiş fakturaların doğruluğuna əmin olduqda «göndər» düyməsi sıxılır. Bu zaman açılan səhifədə «qəbul» düyməsi sıxılır. Açılan pəncərədə əvəzləşəcək fakturaların doğruluğuna əminlik olduğunuzu təsdiqləməklə əvəzləşəcək fakturanın göndərilməsi əməliyyatını başa çatdırmış olacaqsınız.

**FƏXRİYYƏ**

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

## Elektron qaydada ödənilən vəsaitdən ƏDV-nin tutulması

**Xaricdə təhsil alan tələbənin yataqxana xərcləri ilə bağlı elektron qaydada ödənilən vəsaitdən bank tərəfindən ƏDV tutulmalıdırmı?**

«Elektron ticarət haqqında» Azərbaycan Respublikasının 10 may 2005-ci il tarixli 908-IIQ nömrəli Qanununun 1.0.1-ci maddəsinə əsasən, informasiya sistemlərindən istifadə edilməklə malların alğı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi (o cümlədən internet şəbəkəsi vasitəsilə elektron kitabların, musiqinin, audio-video materialların, qrafik təsvirlərin, virtual oyunların, proqram təminatlarının yüklənməsi, reklamların yerləşdirilməsi, digər analoji iş və xidmətlər) üzrə həyata keçirilən fəaliyyət elektron ticarət hesab olunur.

Vergi Məcəlləsinin 169.1-ci maddəsinə əsasən, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan Respublikasının ərazisində həmin Məcəllənin 169.2-ci və ya 169.5-ci maddələrində adı çəkilən vergi agenti üçün xidmət göstərirsə və ya iş görürsə (o cümlədən elektron ticarət qaydasında Azərbaycan Respublikasının hüdudlarından kənarda otel xidmətlərinin və aviabiletlərin sifarişi üzrə xidmətlər istisna olmaqla, işlərin görülməsi və xidmətlərin göstərilməsi), XI fəslin məqsədləri üçün işlərin görülməsi və ya xidmətlərin göstərilməsi bu maddəyə uyğun olaraq vergiyə cəlb olunur.

**Qeyd olunanlara əsasən:**

Azərbaycan Respublikasının hüdudlarından kənarda yerləşən tələbə yataqxanasının xərclərinin elektron şəkildə ödənilməsi elektron ticarət qaydasında həyata keçirilən iş və xidmətlər hesab edilmir və həmin ödənişlərdən banklar tərəfindən ƏDV tutulmur.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2018-ci ilin yanvar-aprel aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilmiş **4160,1 milyon** manat vəsaitin **2281,6 milyon** manatı və ya 54,8%-i qeyri-neft sektoruna sərf edilib.
- Bu ilin aprel ayında Azərbaycan ilə Gürcüstan arasında ticarət dövriyyəsinin həcmi yanvar-mart ayları ilə müqayisədə **93 milyon** dollar artaraq **363 milyon 303 min** dollar olub.
- Cari ilin ilk 4 ayında tikinti materiallarının istehsalı sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən istehsal edilmiş məhsulun ümumi dəyəri 37,8% artaraq **162,5 milyon** manat təşkil edib.
- Dəmir yolu nəqliyyatı ilə yanvar-aprel aylarında **4,4 milyon ton** yük və **828,4 min** sərnişin daşınıb.

Azərbaycan Xalq Cümhuriyyəti - 100

# Cümhuriyyətin iqtisadi siyasət formulu: «Güclü sahibkarlıq - güclü dövlət»

MÜSƏLMAN ALƏMİNDƏ İLK DEMOKRATİK RESPUBLİKANIN MƏHZ AZƏRBAYCANLILAR TƏRƏFİNDƏN YARADILMASI DÖVLƏTİMİZ ÜÇÜN TARİXİ HADİSƏDİR. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ (AXC) ÖLKƏMİZİN DÖVLƏTÇİLİK TARİXİNDƏ ƏN PARLAQ SƏHİFƏLƏRDƏN BİRİDİR.

Şərqin ilk demokratik dövlətinin fəaliyyətində iqtisadi istiqamət diqqət mərkəzində olan xüsusi sahələrdən idi. Cümhuriyyət hökuməti respublikada iqtisadi vəziyyətin yaxşılaşması, sosial problemlərin həlli istiqamətində ciddi addımlar atmağa cəhd edir, müxtəlif sosial proqramlar həyata keçirməyi planlaşdırırdı. Bu, təsdiq olunan qanunlarda və həyata keçirilən konkret tədbirlərdə özünü göstərirdi. İqtisadi münasibətlərin tənzimlənməsi, aqrar siyasət, xarici ticarət əlaqələri, iqtisadi idarəetmə sistemi və s. bu baxımdan xüsusi əhəmiyyət kəsb edirdi. Yeni cəmiyyət quruculuğunda, həmçinin, islam faktoru da nəzərə alınırdı. Bu sistemdə dünyəvilik və İslam sanki vəhdət təşkil edirdi. Mülkiyyət və vergi məsələlərində ədalətlilik və nisbi bərabərlik prinsiplərinə üstünlük verilməklə, «demokratizmin ümdə əqidələrinin İslam ilə müxalif olmadığı» təsdiq olundu. Qısa bir müddətdə AXC-nin 23 dövlət tərəfindən tanınmasında, heç şübhəsiz, bu meyarların da az əhəmiyyəti olmamışdır. Müstəqil dövlət quruculuğu dövründə ölkənin xarici qüvvələrin təsiri altında olması nəticəsində iqtisadiyyatın, demək olar ki, tam dağılması gənc hökuməti böyük çətinliklərlə qarşılaşdırmışdı. Hökumətin iqtisadiyyat sahəsində əsas vəzifəsi yalnız dağılmış təsərrüfat sahələrini bərpa etmək deyil, həm də yeni iqtisadi sistemin prinsiplərini müəyyənləşdirmək və bu əsasda köklü islahatlara başlamaq idi.

Lakin Xalq Cümhuriyyəti hökumətini təmsil edən şəxslərin əksəriyyəti Rusiyanın qabaqcıl universitetlərinin məzunları olsalar da, onların müvafiq islahatlar keçirmək sahəsində təcrübələri yox idi. Hökumətin kursu tarixi şəraitə görə həddən ziyadə ideoloji məzmun daşıyır və özünü respublikanın bütün icra orqanlarında büruzə verirdi. İqtisadi və siyasi platforma bütün vətəndaşların həqiqi hüquq bərabərliyini bərqərar edərək, demokratik bir cəmiyyət qurmağı nəzərdə tuturdu. Bu məqsədə çatmağın yollarından biri mülkiyyət formasının müxtəlifliyi prinsipini həyata keçirməkdən, xüsusi şəxslərə, səhmdar birliklərinə, bələdiyyə - özünüidarə orqanlarına məxsus mülkiyyət formalarının inkişafı üçün hər kəsə bərabər imkan yaradan demokratik şəraiti təmin etməkdən ibarət idi. O zaman geniş yayılmış bolşevizm mövqeyindən fərqli olaraq, AXC və onun liderləri fabrik, zavod, torpaq və digər əsas istehsal vasitələri üzərində xüsusi mülkiyyəti rədd etmirdilər. Əksinə, belə hesab edirdilər ki, bu cür mülkiyyəti tamamilə aradan qaldırmaq indiki vəziyyətdə insanların şəxsi təşəbbüs qüvvətini zorakı qaydada aradan götürür. Cümhuriyyət dövrünün ziyalıları ölkənin iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün cidd-cəhdlə çalışırdılar. Görkəmli Azərbaycan sənayeçisi Hacı Zeynalabdin Tağıyev 1919-cu ilin iyununda Baş nazir Nəsib Yusifbəyliyə ünvanladığı müraciətində maliyyə, ticarət və sənaye sahələrində hökumət kursunun dəyişdirilməsində qətiyyət göstərilməsindən bəhs edirdi.

Kənd təsərrüfatı və neft sənayesi o vaxt iqtisadiyyatın əsas özülünü və ölkə əhalisinin 70 faizinin fəaliyyət və gəlir mənbəyini təşkil edirdi. AXC-nin aqrar siyasətinin əsasını «Müsavat» fraksiyasının və Torpaq Nazirliyinin mövqeyini əks etdirən aqrar islahatlar haqqında qanun layihələri təşkil edirdi. Bu qanun layihələrinin müəyyən fərqlərinə baxmayaraq, əsas məqsəd torpaqsız və aztorpaqlı əhalini torpaqla təmin etməkdən ibarət idi. Neft və neft məhsulları Azərbaycan sənayesinin özəyini təşkil edirdi. Bakı neftinin ən mühüm istehlakçısı olan Rusiyanın Azərbaycanın müstəqilliyini tanımaq istəməməsinə baxmayaraq, sovet Rusiyası ilə Azərbaycan hökuməti arasında ticarət haqqında danışıqlar aparılırdı. Bu danışıqlar nəticəsində 1920-ci il martın 30-da ticarət müqaviləsi imzalandı.

AXC-nin iqtisadi platformasında pulun inflyasiyasının qarşısını almaq, inflyasiya şəraitində əməkhaqqını tənzimləmək, ümumiyyətlə, pul tədavülünü, xaricə xammal satışını qaydaya salmaq, gömrük siyasəti, sahibkarlarla dövlət arasında münasibətlərin vergi vasitəsilə tənzimlənməsi qaydaları, Rusiya və digər qonşu ölkələrlə iqtisadi əməkdaşlıq şərtləri diqqətəlayiqdir. Müstəqil dövlətin atributu kimi milli pul vahidinin buraxılması AXC-nin maliyyə siyasətinin mühüm tərkib hissəsi idi. 1918-ci ilin əvvəlindən Bakıda yeni kağız pullar - «Bakı bonları» buraxıldı. Milli pul vahidinin möhkəmləndirilməsi, onun alıcılıq qabiliyyətinin qorunub saxlanılması hökumətin iqtisadi siyasətinin əsas qayğılarından idi. Çünki AXC-nin milli valyutası inflyasiya şəraitində dövriyyəyə buraxılmışdı. Hökumət həm əvvəlki dövrdən miras qalan, həm də respublikanın mövcudluğu dövründə baş verən inflyasiyaya qarşı mübarizə aparırdı. Bu məqsədlə müstəqil dövlətin maliyyə, vergi, bank-kredit sisteminin yaradılması, Dövlət Bankının yaradılması, Maliyyə Nazirliyinin 20 iyul 1919-cu il tarixli qərarı ilə əmtəələrin sərbəst ixracının təmin edilməsi, parlamentin bu məsələyə həsr olunan xüsusi iclasının keçirilməsi və həmin iclasda diqqətin xəzinənin doldurulmasına yönəldilməsi gələcəyə ümidlə baxmağa əsas verirdi. 1919-cu ilin 11 dekabrında xəzinəyə müəyyən rüsum keçirmək şərtilə (ixrac olunan xammalın dəyərinin 25 faizi həcmində) xammal ixracına icazə verilməsinə dair qanun qəbul edildi, xaricə gizli yolla gümüş, qızıl, platin aparılmasına görə məsuliyyət məsələsinə baxıldı və bu, 20 oktyabr 1919-cu il tarixli qanunda öz geniş əksini tapdı.

Uğurlu beynəlxalq iqtisadi əlaqələrin qurulması siyasi və iqtisadi müstəqillik əldə etmiş xalqların qarşısında duran əsas vəzifələrdəndir. Bu məsələnin həlli həm daxili, həm də xarici amillərdən asılı olduğu üçün xeyli çətindir və müəyyən vaxt tələb edir. Belə çətinliklərlə gənc, təcrübəsiz və bir sıra xarici amillərlə üz-üzə qalan bir dövlətin üzləşməsi, əlbəttə ki, başadüşülən idi. İstiqlal Bəyannaməsində xarici ölkələrlə, xüsusən qonşu dövlətlərlə iqtisadi əlaqələr yaratmaq, bu əlaqələri genişləndirmək zərurəti nəzərdə tutulurdu. Təsadüfi deyildi ki, Cümhuriyyət liderləri, ümumiyyətlə, Azərbaycan məsələsinə yalnız bir millət və xalqın məsələsi kimi baxmırdılar. «Müsavat» Partiyası öz məramnaməsində Azərbaycanın müstəqilliyi və inkişafında xarici faktorlara çox böyük əhəmiyyət verirdi, «güclü sahibkarlıq - güclü dövlət» formuluna istinad edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə xüsusi mülkiyyətin toxunulmazlığı prinsipini əsas götürən azad iqtisadiyyat tərəfdarları ilə yanaşı, iqtisadiyyatın dövlət tənzimlənməsi ideyasına üstünlük verənlər də var idi. Eyni zamanda, dövlət inhisarçılığının üstünlüklərini liberal iqtisadiyyat, sosialist tənzimlənməsi ilə sintez edib, əslində, qarışıq iqtisadiyyat ideyasını ortalığa qoyan qüvvələr də az deyildi. Bu ideologiyaların hansına üstünlük verilməsindən asılı olmayaraq, qeyd edilməlidir ki, Cümhuriyyət dövründə aparılmış iqtisadi siyasət xüsusi maraq kəsb edir və diqqətəlayiqdir.

# Elektron ticarətin vergiyə cəlb olunması

**Elektron ticarət zamanın tələbidir. Ənənəvi ticarətin, yəni fiziki olaraq alğı-satqının və ya iş və xidmətin alğı-satqısının vergiyə cəlb olunma mexanizmləri mövcud olsa da, bu mövzu öz aktuallığını saxlayır, istər Avropa İttifaqının, istərsə də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) bununla bağlı öz fərqli yanaşmaları var. Mövzunu «Baker Tilly» şirkətinin vergi və hüquq məsələləri üzrə partnyoru Nərmin Hacıyeva şərh edir.**

***İndiyə qədər vəziyyət necə idi?***

Bu gün e-ticarət inkişaf edir, həm rezident, həm də qeyri-rezident ticarətlə məşğul olanların sayı günbəgün artır ki, onlar da Azərbaycandakı istehlakçılara e-portallar, virtual alətlər vasitəsilə müxtəlif xidmətlər göstərirlər. İki il bundan əvvələdək bu kateqoriyadan olan əməliyyatların vergiyə cəlb olunması ilə bağlı müəyyən boşluqlar var idi. ƏDV ödənilməsi baxımından digər vergi növlərinin də problemi onda idi ki, ölkə qanunvericiliyi sistemində e-ticarət sistemini tənzimləyən normalar mövcud deyildi.

Xarici dövlətlərin təcrübəsinə baxsaq, ticarət məcəlləsi, ticarət normaları deyilən bir aktın olduğunu görərik. Bizim e-ticarət haqqında qanunumuzda qeyd olunub ki, e-ticarət satıcıları vergi ödəyicisi kimi qeydiyyata alınmalıdırlar. Buna nə dərəcədə əməl olunmasını isə müəyyənləşdirmək çətindir: çünki e-ticarət satıcıları əməliyyatları elektron portallar vasitəsilə virtual apardıqları üçün onların əməliyyatlarını, dövriyyəsini, qeydiyyata alınıb-alınmadıqlarını izləmək inzibatçılıq baxımından mümkün olmurdu. Bu da, sözsüz ki, onların əməliyyatlarının vergiyə cəlb olunmasında çətinliklər yaradırdı.

2016-cı ilin avqust ayında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə vergi sahəsində bir sıra islahatların istiqamətləri müəyyənləşdirildi. Onlardan biri də beynəlxalq təcrübədə rəqəmsal iqtisadiyyatın vergiyə cəlb olunması məsələlərinin öyrənilməsi və bu mexanizmlərin qanunvericiliyə daxil edilməsi idi. Vergi Məcəlləsinə edilən dəyişikliklər arasında rəqəmsal iqtisadiyyatın vergiyə cəlb olunmasında əsas iki məsələ: ödəmə mənbəyində verginin tutulması (10%) və ƏDV (18%) tətbiq edilməsi mexanizmi idi.

***Təcrübədə rast gəlinən çətinliklər***

Ödəmə mənbəyində verginin tutulması ilə bağlı Vergi Məcəlləsinə diqqət yetirsək, bu tətbiq xarici e-pul kisəsinə pulların qoyulması, transfer edilməsi ilə bağlı idi. Xarici e-pul kisəsinə transfer edilən istənilən maliyyə vəsaitinin köçmə anında 10% dərəcə ilə ödəmə mənbəyində, yəni həmin maliyyə vəsaitinin sonrakı taleyi və təyinatı barəsində məlumat əldə etmədən vergi tutulur. Burada əsas məsələ hər iki verginin tutulması öhdəliklərinin bankların üzərinə qoyulmasıdır. Bu dəyişikliklər satıcının (sahibkarın) alıcıya (istehlakçıya) münasibətdə əməliyyatlarını tənzimləyir. Alıcı (istehlakçı) dedikdə isə qeydiyyata alınmayan şəxslərdən söhbət gedir. Vergi Məcəlləsinə əsasən vergi ödəyicisi kimi qeydiyyata alınan şəxslərin, qeyri-rezidentin ƏDV ilə bağlı ödəmə mənbəyində tutulan vergi ilə bağlı öhdəlikləri var və işlək mexanizmləri mövcuddur.

***Qeyri-rezident tərəfindən elektron ticarət qaydasında iş və xidmətlərin görülməsi***

Digər bir məsələ e-ticarətdə ƏDV ödənilməsi məsələsidir. Vergi Məcəlləsində qeyd edilib ki, qeyri-rezident e-ticarət satıcıları Azərbaycan Respublikası alıcılarına iş və xidmət təklif edərkən 18% dərəcə ilə ƏDV-yə cəlb olunurlar. Bura müxtəlif iş və xidmətlər daxildir. Bəs istənilən e-ticarət satıcısının təqdim etdiyi iş və xidmət sonda ƏDV-yə cəlb olunmalıdırmı?

Bununla bağlı e-ticarət haqqında qanuna edilən dəyişikliklərdə qeyd olunur ki, bura informasiya portallarının, informasiya sistemlərinin internetdən istifadə etməklə təqdim etdiyi iş və xidmətlər daxildir. Xüsusən e-kitabların, musiqinin, video-audio materialların, qrafik təsvirlərin və virtual oyunların yüklənməsi kimi əməliyyatlar və xidmətlər də 2017-ci ilin əvvəlindən e-ticarət qaydasında təqdim edilən iş və xidmətlər sayılır. Burada bir istisna müəyyən olunub: qanunun tələbi qeyri-rezident satıcının alıcıya, yəni Azərbaycan Respublikası istehlakçısına mehmanxana xidmətləri və satışı ilə göstərdiyi xidmətlərə tətbiq olunmur. Çünki bu əməliyyatlar və xidmətlər, alıcı Azərbaycan istehlakçısı olsa belə, ölkə xaricində alınır. Digər e-ticarətdən qeyri-rezidentin əməliyyatlarının ƏDV-yə cəlb olunması ilə bağlı diqqət yetirməli olduğumuz daha iki məqam isə bundan ibarətdir ki, əgər alıcı vergi ödəyicisi olmayan şəxsdirsə, ödənilən məbləğ Azərbaycan Respublikasının vergi orqanı tərəfindən alıcının vəsaiti hesabına tutulur. Qeyri-rezident satıcı öz göstərdiyi xidmətə görə hər hansı bir dəyər yaradırsa, həmin dəyər son nəticədə qeyri-rezidentə çatır.

Lakin dəyərin üzərindəki məbləğ, yəni 18%-lik ƏDV Azərbaycan Respublikasının alıcısının vəsaitindən tutulur. Bu isə o deməkdir ki, istənilən vətəndaş bu gün plastik kart vasitəsilə 10 ABŞ dolları dəyərində hər hansı bir elektron kitab yüklədikdə onun hesabından 11,80 ABŞ dolları həcmində vəsait tutulur.

Qeyd olunan məbləğlər bank tərəfindən hesablansa da, hər hansı formada əvəzləşdirilə bilməz. Çünki ƏDV əvəzləşdirilə bilən vergi növüdür və bununla bağlı qanunvericilikdə konkret müddəalar var. Bu məbləğlər isə bankların öz fəaliyyəti ilə bağlı olan məbləğlər deyil. Bankların sırf vasitəçi olduğu, hesabladığı və tutduğu məbləğlər bu və ya digər şəkildə bank fəaliyyəti ilə əlaqəli olmadığı üçün onların əvəzləşdirilməsi mümkün deyil.

***Beynəlxalq təcrübədə rəqəmsal iqtisadiyyatın vergiyə cəlb olunması***

Bu mövzunu araşdırarkən, ilk növbədə, Avropa Birliyinə üzv ölkələrin son razılaşmasına diqqət yetirmək lazımdır. Ümumiyyətlə, beynəlxalq təcrübədə e-ticarətin vergiyə cəlb olunması dedikdə, söhbət əsasən ƏDV-dən gedir. Bununla bağlı OECD yanaşması əsas tutulur. 2017-ci ilin dekabr razılaşmasınadək vəziyyət tam fərqli idi. Hazırda isə vahid ƏDV müəyyənləşdirilib və bütün üzv ölkələrin rezident satıcıları həmin portalda qeydiyyatdan keçirlər. Onların təklif etdikləri işlərin, xidmətlərin dəyərindən yaranan ƏDV alıcının yerləşdiyi üzv dövlətə aid dərəcə ilə tutulur. Əgər Avropa Birliyinə üzv dövlətlərdən birinə aid rezident müəssisənin satıcısı digər dövlətin alıcısına hər hansı mal təqdim edirsə, o zaman alıcının yerləşdiyi dövlətin ƏDV dərəcəsi tətbiq olunur. Lakin kiçik və orta sahibkarların fəaliyyətinin inzibatçılıq baxımından daha da asanlaşması ilə bağlı burada da məhdudiyyət qoyulub.

Türkiyədə 2018-ci il yanvar ayının 1-dən e-ticarətin ƏDV-yə cəlb olunması ilə bağlı qanunvericilik qüvvəyə minib, inzibatçılıq prosesləri başlayıb. Burada da əsas məqsəd qeyri-rezident e-ticarət satıcılarının Türkiyədə ƏDV qeydiyyatına alınmasıdır: qanun ölkə ərazisindəki istehlakçılara elektron ticarət qaydasında xidmət göstərən qeyri-rezident satıcılara tətbiq edilir.

***Avropa İttifaqı təcrübəsi***

Böyük elektron platformalar Avropa İttifaqına üzv olmayan ölkələrin satıcıları tərəfindən bu platformalarda aparılan alğı-satqı əməliyyatlarından ƏDV-nin tutulmasına görə öhdəlik daşıyırlar. Hazırkı vəziyyətdə hər üzv dövlətin rezidenti öz ölkəsində ƏDV qeydiyyatına alınaraq vergini hesablayır və ödəyir. Növbəti mərhələdə həmin ödəyicilərin elektron ticarətdən hesabladıqları ƏDV xidmətlərin alıcısının olduğu digər dövlətə köçürülür. Vahid ƏDV platforması yaradılmasından sonra bütün Avropa İttifaqı üzrə elektron ticarət iştirakçıları qeydiyyatdan keçərək, ƏDV-ni alıcının yerləşdiyi üzv dövlətin dərəcələri ilə hesablayır.

İllik müəyyən edilmiş hədd daxilində aparılan əməliyyatlar satıcının qeydiyyatda olduğu üzv dövlətdə ƏDV-yə cəlb olunur.

***OECD yanaşması***

OECD ödəmə mənbəyində verginin tutulması üçün qarışıq mənfəət vergisi öhdəliyinə alternativin müəyyənləşdirilməsi, müxtəlif satış növlərinin axtarılıb tapılması, satış zamanı bankların və digər aralıq şəxslərin (maliyyə institutları) ödəmə mənbəyində vergi tutulması məsələlərini araşdırır. Ödəmə mənbəyində vergi - xərclər nəzərə alınmadan tutulan vergidir. OECD yanaşmasına görə, qeyri-rezidentlər bu zaman rezidentlərə münasibətdə ədalətsiz mühakimə olunacaqlar. Bu isə dünya təcrübəsində mövcud olan e-ticarət prinsiplərinin pozulmasına, başqa sözlə, Avropa İttifaqının vacib tələblərindən olan prinsipin gözlənilməməsinə, xarici satıcıların (xidmət göstərənlərin) yerli satıcılardan daha çox vergiyə cəlb olunmasına gətirib çıxarır.

> Qeyri-rezident e-ticarət satıcıları Azərbaycan Respublikası alıcılarına iş və xidmət təklif edərkən 18% dərəcə ilə ƏDV-yə cəlb olunurlar

*Hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

# Vergi mövzusunda keçirilən təlimlərə yekun vurulub

Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Vergilər Nazirliyi ilə birgə tələbələr üçün təşkil olunmuş vergilərlə bağlı təlim proqramı başa çatıb. Proqram çərçivəsində vergi sahəsinin mütəxəssisləri tərəfindən «Vergi inzibatçılığı və menecmenti», «Vergi auditi» və «İnformasiya Texnologiyaları və vergi analitikası» mövzularında təlimlər keçirilib. Tələbələr vergi inzibatçılığının əsas trendləri, inkişaf istiqamətləri, müasir analitik texnologiyalar və vergi sistemində müasir çağırışlar barədə məlumatlandırılıb.




Təlimin yekunları və iştirakçılara sertifikatların təqdim olunması ilə bağlı keçirilmiş tədbirdə çıxış edən UNEC-in rektoru Ədalət Muradov bildirib ki, dövlət qurumları ilə əməkdaşlıq çərçivəsində təşkil olunan tədris proqramları və təlimlər tələbələrin biliklərinin təkmilləşdirilməsinə, onların öz ixtisasları üzrə yüksək səviyyəli işlə təmin olunması imkanlarını gücləndirmək üçün müvafiq sahələr üzrə potensiallarının artırılmasına xidmət edir. Universitet dövlət qurumlarının tələbatına uyğun mütəxəssislərin yetişdirilməsinə çalışır.

Vergilər Nazirliyinin İqtisadiyyat sahələrinin analitik təhlili və ekspertizası departamentinin baş direktorunun müavini Elçin Ağakişiyev bildirib ki, nazirlik təbliğat və maarifləndirmə sahəsində təhsil müəssisələri ilə əməkdaşlığa xüsusi önəm verir. Vergilər Nazirliyi ilə UNEC arasında mövcud əməkdaşlığı inkişaf etdirmək istiqamətində görülən tədbirlərdən biri kimi keçirilən təlim tələbələr arasında vergi sahəsində maarifləndirmə işinə böyük töhfə verəcəkdir.

Qeyd edək ki, təlim başa çatdıqdan sonra tədris olunan mövzular üzrə imtahanlar keçirilib və tələbələrin təlim müddətində əldə etdikləri biliklər yoxlanılıb. İmtahanları uğurla verən tələbələrə sertifikatlar təqdim olunub.

# Bələdiyyələr gəlir və xərclər sahəsində şəffaflığı təmin etməlidirlər

**Azərbaycan Prezidenti Administrasiyasının Ərazi-təşkilat şöbəsinin Bələdiyyələrlə iş sektorunun müdiri Emin Eyvazov yerli özünüidarəetmə orqanlarının fəaliyyəti ilə bağlı qəbul edilmiş yeni qanunlar, mövcud qanunlarda edilmiş əlavə və dəyişikliklər haqqında danışarkən bildirib ki, yeniliyi, şəffaflığı, sakinlər qarşısında hesabatlılığı təmin etməyən bələdiyyə sədrlərinin fəaliyyəti seçiciləri və müvafiq dövlət orqanlarını narahat edir.**

«Bəzi bələdiyyələr gəlir və xərcləri ilə bağlı məlumatları Bələdiyyələrin Avtomatlaşdırılmış Məlumat Sistemi proqramında yerləşdirmirlər və ya milli assosiasiyaların müdaxiləsindən sonra bunu edirlər. Həmin proqram bələdiyyələrin gündəlik işi olduğu halda, məlumatların yerləşdirilməməsinin, vergi ödəyicilərinin qeydə alınmamasının səbəbini necə izah etmək olar? İllərlə yığılıb qalmış vergi borclarının ödənilməsini təmin etmək üçün nəyə görə qanunvericiliyin yaratdığı imkanlardan tam istifadə olunmur?».

E. Eyvazovun sözlərinə görə, Azərbaycanda bələdiyyələrin fəaliyyəti zamanı yaranan problemlərin həlli və gələcək inkişafı üçün lazımi tədbirlərin görülməsi aidiyyəti dövlət orqanlarının daim diqqət mərkəzindədir: «Vergi və ödənişlərin toplanması, gəlir və xərclər sahəsində şəffaflığın təmin olunması məqsədilə Prezident Administrasiyasının dəstəyi ilə Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli Assosiasiyaları tərəfindən Bələdiyyələrin Avtomatlaşdırılmış Məlumat Sistemi proqramı hazırlanıb və artıq bir ildən çoxdur ki, tətbiq edilir. Proqramın tətbiqi bələdiyyələrin vergi və maliyyə sahəsindəki fəaliyyətini xeyli dərəcədə təkmilləşdirib, yerli vergi ödəyicilərinin elektron məlumat bazası əsasında dəqiq uçotunun aparılması mümkün olub».

Bələdiyyələrin normal fəaliyyətinin təmin edilməsi üçün dövlət hakimiyyət orqanlarının bu sahənin inkişafı üçün zəruri tədbirləri davamlı olaraq həyata keçirdiyini diqqətə çatdıran sektor müdiri 2017-ci ildə ölkə bələdiyyələrinin ümumi büdcə gəlirlərinin 2016-cı ilə nisbətən 14,1 faiz artaraq 36.079.400 manat təşkil etdiyini deyib: «Proqrama qoyulmuş 141 qəsəbə bələdiyyəsinin illik büdcə gəlirləri ötən dövrlə müqayisədə 3,6 faiz artaraq 7.716.047 manat olub ki, bu da ölkə üzrə illik büdcə gəlirlərinin 21,4 faizini təşkil edir. Ümumilikdə respublikanın 54 şəhər və rayon bələdiyyələri üzrə yerli büdcə gəlirlərində artım baş verib. Daha çox artım qəsəbə və kənd bələdiyyələrinin payına düşür».

E.Eyvazov bələdiyyələrin yerli vergi və ödənişlərdən başqa digər maliyyə mənbələrinin yaradılması istiqamətində heç bir səy göstərmədiklərinə ciddi irad bildirərək qeyd edib ki, 3 bələdiyyə istisna olmaqla, ölkə bələdiyyələrinin heç birində əlavə gəlir gətirə bilən istehsal, xidmət və ya hər hansı digər fəaliyyətlə məşğul olan bələdiyyə müəssisəsi yaradılmayıb. Bu istiqamətdə bələdiyyə sədrləri ciddi düşünməli və fəaliyyətlərində dönüş yaratmalıdırlar.

Yeri gəlmişkən, Vergilər Nazirliyi bələdiyyələrdə vergi və ödənişlərin hesablanması, ödənilməsi qaydalarının təkmilləşdirilməsi istiqamətində mühüm işlər həyata keçirir. Bələdiyyə vergilərinin ödəyiciləri olan fiziki şəxslərin uçotunun elektron qaydada aparılmasının təmin edilməsi məqsədilə «Bələdiyyə Vergi İnformasiya Sistemi» (BVİS) proqram

> Yaradılmış bütün imkanlara baxmayaraq, əksər bələdiyyələrin nağdsız ödənişlərə hələ də yaxşı əməl etmədiklərinin, yerli vergilərin toplanmasında şəffaflığın lazımi səviyyədə qurulmadığının, bir çox bələdiyyələrin ümumiyyətlə bu cür əməliyyatlara maraq göstərmədiklərinin şahidi oluruq

təminatı hazırlanaraq bir cox bələdiyyələrdə quraşdırılıb, «İnternet Bələdiyyə İdarəsi» yaradılıb. BVİS-in Hökumət Ödənişləri Portalına (HÖP) qoşulması isə toplanmış vergi və rüsumların real vaxt rejimində yerli büdcəyə ödənilməsini təmin edir. Bu prosesdə şəffaflığın təmin olunması məqsədilə əməliyyat gününün sonunda qəbul edilmiş vəsaitlərin müvafiq hesablara çatdırılması üzrə portalda elektron üzləşmə aparılır və bu haqda BVİS-ə məlumat ötürülür. Ödəyicilər yaradılmış infrastruktura qoşulmuş bələdiyyə orqanları üzrə ölkənin istənilən regionunda «Azərpoçt» MMC-nin və 36 bankın 2000-ə yaxın ödəniş məntəqəsində və özünəxidmət terminallarında nağd formada, həmçinin ödəniş kartlarından istifadə etməklə HÖP-ün internet resursları və «Elektron hökumət» portalı vasitəsilə ödənişlərini nağdsız qaydada həyata keçirə bilərlər. Bunun üçün qeyd olunan istənilən üsulla yerli (bələdiyyə) vergi və ödənişlərin aparılması məqsədilə bələdiyyə vergi ödəyicisinin eyniləşdirmə nömrəsindən (VÖEN) və ya şəxsiyyət vəsiqəsinin seriya və nömrəsindən istifadə edilə bilər.

Yaradılmış bütün imkanlara baxmayaraq, əksər bələdiyyələrin nağdsız ödənişlərə hələ də yaxşı əməl etmədiklərinin, yerli vergilərin toplanmasında şəffaflığın lazımi səviyyədə qurulmadığının, bir çox bələdiyyələrin ümumiyyətlə bu cür əməliyyatlara maraq göstərmədiklərinin şahidi oluruq. Bununla belə, Vergilər Nazirliyi bələdiyyələrin hüquqi maarifləndirmə işlərinin aparılmasına və metodiki köməklik göstərilməsinə böyük önəm verir, bələdiyyə üzvləri ilə tez-tez görüşlər təşkil edilir. Belə görüşlərdə bələdiyyə və bələdiyyə müəssisələrində kargüzarlığın təşkili, yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması, vergi və ödənişlərin hesablanması, ödənilməsi və elektron uçotu ilə əlaqədar mövzular müzakirə olunur, «Yerli vergi və ödənişlər haqqında» Qanunun müddəaları, bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərin mənfəət vergisinin, fiziki şəxslərin əmlak və torpaq vergilərinin, yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisinin hesablanması və ödənilməsi qaydaları bələdiyyə nümayəndələrinin diqqətinə çatdırılır. Bələdiyyələrin fəaliyyətində şəffaflığın artırılması və korrupsiya hüquqpozmalarının qarşısının alınması, BVİS altsistemləri və onların xüsusiyyətləri, yerli verginin ödəyicisi olan fiziki şəxslərin uçota alınması, bu sistemdə qeydiyyata alınmış vergi ödəyicilərinə yerli (bələdiyyə) vergilərin hesablanması və tədiyyə bildirişlərinin elektron qaydada hazırlanması və vergi daxilolmalarının BVİS-ə işlənməsi prosedurları izah olunur, bu istiqamətdə səmərəli təkliflər dinlənilərək tətbiq edilir.

Bir məsələni də vurğulamaq yerinə düşər ki, «Bələdiyyələrin statusu haqqında» Qanunun 43-cü maddəsinə edilmiş əlavə və dəyişikliyə, eyni zamanda «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» Qanunun 11.4-cü maddəsinə əsasən, bələdiyyələr tərəfindən yerli vergi və ödənişlərin nağd şəkildə qəbulu qadağan olunub.

**Rəşad SADIQOV**

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin may və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin may və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## BİR CÜMLƏ - BİR XƏBƏR

«Asan İmza» Almaniyanın Münxen şəhərində identitet və bulud texnologiyası üzrə «European Identity & Cloud Conference 2018» adlı ən böyük Avropa konfransında təmsil olunub.

III Bakı Ticarət Festivalı («Baku Shopping Festival») zamanı Maliyyə Bazarlarına Nəzarət Palatasının tövsiyəsi ilə 23 bankın 48-dən çox filial və şöbəsi gücləndirilmiş iş rejimində fəaliyyətini davam etdirir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Konfederasiyası ilə Rusiyanın Sənayeçilər və Sahibkarlar İttifaqı arasında əməkdaşlıq memorandumu imzalanıb.

2020-ci ildə Bolqarıstan ilk Azərbaycan təbii qazını ala biləcək.

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən iyunun 20-də dövlət əmlakının özəlləşdirilməsi üzrə keçiriləcək növbəti hərracda investorlar seçimini 114 dövlət əmlakı üzrə aparacaqlar.

Azərbaycan və Hindistan arasında birbaşa aviareyslərin açılması planlaşdırılır.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

### Əmək müqaviləsinin rəsmiləşdirilməsi

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |
| Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

### Əmək müqaviləsinin rəsmiləşdirilməsi

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✘ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✘ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✘ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✘ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✘ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✘ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✘ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# ABŞ iş adamları Azərbaycan iqtisadiyyatına maraq göstərirlər

Azərbaycanda Amerika Ticarət Palatasının («AmCham») «Door-Knock» missiyası çərçivəsində ABŞ iş adamları ilə Vaşinqtonda keçirdikləri görüşlər uğurla başa çatıb. İkitərəfli iqtisadi əlaqələrin mövcud vəziyyəti, qarşıdakı dövrdə nəzərdə tutulan əməkdaşlığın istiqamətləri və Azərbaycana ABŞ investisiyalarının təşviqinin müzakirə olunduğu tədbirdə missiya ABŞ Konqresinin üzvləri, ABŞ Administrasiyanın rəsmiləri, biznes icmasının rəhbərləri və digər şəxslərlə çoxsaylı görüşlər keçiriblər.

ABŞ Ticarət Nümayəndəliyinin Avropa və Yaxın Şərq məsələləri üzrə direktoru Ceyson Bantin, ABŞ Ticarət Palatasının vitse-prezidenti Qari Litman və digər nüfuzlu şəxslərlə keçirilmiş görüşlərdə «AmCham»a üzv olan şirkətlərin Azərbaycandakı işgüzar fəaliyyəti, ölkəmizin iqtisadiyyatına verdiyi töhfə, yeni yaradılan iş yerlərində iştirakı və digər məsələlər müzakirə olunub.

«AmCham»ın icraçı direktoru Natəvan Məmmədova ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar barədə məlumat verib. Bildirib ki, təşkilat tərəfindən özəl sektorun və sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan hökumətinə təqdim olunmuş sənədlərdə əksini tapmış təkliflər dövlətin siyasi proqramlarına daxil edilib, bəzi təkliflər isə qanunvericiliyə müvafiq dəyişikliklərlə nəticələnib. Dövlət-biznes sektorunda mühüm bir platformaya çevrilən açıq dialoq qeyri-neft sektorunun inkişafına səbəb olmaqdadır.

ABŞ Ticarət Departamentinin Rusiya, Ukrayna və Avrasiya regionu üzrə direktoru Metyu Edvards bildirib ki, Azərbaycanda aparılan islahatlar dövlət- özəl sektor arasındakı dialoqun möhkəmlənməsində mühüm rol oynayır. ABŞ şirkətləri Azərbaycanın biznes mühitinin yaxşılaşdırılmasına müsbət yanaşır və aparılan islahatlar xarici investiorlar üçün potensial imkanlar yaradır. O, «AmCham»a üzv olan şirkətlərin nümayəndələrinin ABŞ Ticarət Departamenti ilə sıx əlaqələrinin qurulmasını ölkələr arasındakı ticarət və iqtisadi əlaqələrin möhkəmləndirilməsinə səbəb olacağına əminliyini ifadə edib.

Kənd Təsərrüfatı Xidmətinin Avropa, Afrika və Yaxın Şərq bölməsinin direktoru xanım Katrin Fulton ilə keçirilən görüşdə aqrar sahədə əlaqələrin perspektiv imkanları müzakirə olunub. Vurğulanıb ki, Azərbaycanda kənd təsərrüfatının vergidən azad edilməsi, aqrar və sənaye texnoparklarına vergi və gömrük güzəştləri ABŞ şirkətlərinin ölkəmizə marağını artırır. ABŞ Dövlət Departamentinin ticarət və biznes məsələləri üzrə xüsusi nümayəndəsi vəzifəsini yerinə yetirən Skot Tiknor ilə keçirilən görüşdə də Azərbaycan və ABŞ arasında ikitərəfli iqtisadi və ticarət əlaqələrinin möhkəmləndirilməsinin mümkün yolları müzakirə olunub, amerikalı investorların Azərbaycana cəlb edilməsi istiqamətində danışıqlar aparılıb. Missiyanın səfəri ABŞ Ticarət Palatasında keçirilən III Trans-Xəzər Forumunda iştirakı ilə yekunlaşıb.

**ELBRUS**

# Bütün prosedurlar «Bir pəncərə»dən keçəcək

## Tikinti işi aparmaq istəyən sahibkarlar üçün icazənin «Bir pəncərə» sistemi vasitəsilə verilməsini ictimaiyyət məmnunluqla qarşılayıb

Ölkədə gedən tikinti prosesində meydana çıxan problemlər vətəndaşları haqlı olaraq narahat edir: dəfələrlə dövlət rəhbərliyi səviyyəsində müvafiq qurumlara insanların süni şəkildə incidilməməsi, bürokratik əngəllər yaradılmaması yönündə xəbərdarlıqlar edilib. Son zamanlar bu istiqamətdə müəyyən müsbət tendensiyalar müşahidə olunur. Bundan sonra paytaxtda tikinti işi aparmaq istəyən sahibkarlar Bakı Şəhər İcra Hakimiyyətindən icazəni «Bir pəncərə» sistemi vasitəsilə alacaqlar, bununla da süründürməçiliklər aradan qaldırılacaq.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin rəhbəri Vüsal Qasımlı məsələ ilə bağlı bildirib ki, dövlət başçısının müvafiq fərmanı ilə tikintiyə icazə prosedurları sadələşdirilib: əvvəl 21 olan prosedurların sayı hazırda 9-a endirilib: «Dünya Bankının «Doing Business» indeksi hesablanarkən Azərbaycan məhz tikinti sahəsində icazələrin sayına və müddətinə görə ən geridə qalmış ölkələr siyahısına düşür. Bu isə ümumi nəticələrdə öz əksini tapır. Həmçinin bu istiqamətdə çox ciddi qeyri-şəffaflıq hökm sürür. Tikinti xərclərinin maya dəyəri kifayət qədər yüksəkdir. Bu isə son nəticədə, daşınmaz əmlak bazarı da daxil olmaqla, bazarda qeyri-adekvat qiymətlərə gətirib çıxarıb. Çünki real xərclərlə rəsmi xərclər arasında çox ciddi fərq var idi. İcazələrin verilməsi üçün iri məbləğdə rüşvət tələb olunurdu və bu istiqamətdə fəaliyyət göstərən qurumlar, demək olar ki, tikinti icazələrini satırdılar».

V.Qasımlı qeyd edib ki, daşınmaz əmlak bazarında tələbin aşağı düşməsi, əhalinin alıcılıq imkanlarının zəifləməsi fonunda bu sektorun fəaliyyəti kifayət qədər məhdudlaşıb: «Bütün bunlar sektora investisiya qoyuluşlarının həcminə də mənfi təsir göstərib. Belə bir şəraitdə icazələrin alınmasında «Bir pəncərə» sisteminin tətbiqi Azərbaycanın beynəlxalq reytinq siyahılarında mövqeyinin gücləndirilməsi və «Doing Business» indeksi baxımından nüfuzunun yüksəldilməsində mühüm rol oynaya bilər. Ölkə daxilində tikinti sektorunun canlandırılması və prosedurların sayının azaldılması, tələb olunan günlərin sayının minimuma endirilməsi vasitəsilə müəyyən nəticə əldə etmək mümkündür».

### Dövlət başçısının müvafiq fərmanı ilə tikintiyə icazə prosedurları sadələşdirilib: əvvəl 21 olan prosedurların sayı hazırda 9-a endirilib

Ekspert Rəşad Əliyevin qənaətincə, hazırda tikinti sektoru ən qeyri-şəffaf sahələrdən biri hesab olunur: «Bu istiqamətdə fəaliyyət göstərən dövlət qurumları ilə yanaşı, özəl subyektlər də qeyri-qanuni fəaliyyətlərə yol verirlər. Burada əmək bazarı, dövriyyənin leqallaşdırılması, satışdan sonrakı proseslər, mənzil-tikinti kooperativlərinin vətəndaşların hüquqlarını pozması və s. kimi kifayət qədər ciddi problemlər var. Bu da indiki halda Azərbaycan iqtisadiyyatının 10 faizindən artıq bir hissəsini təşkil edən, ciddi əməktutumlu hesab olunan bir sektorun inkişaf etməsi, böyüməsi qarşısında ən ciddi maneələrdəndir». Onun sözlərinə görə, bu sahədə «Bir pəncərə» sisteminin reallaşmasından sonra daşınmaz əmlak bazarında qiymətlərin müəyyən qədər aşağı düşməsi, bu sektora investisiya axınının güclənməsi, rəqabətin artması müşahidə olunacaq. Bu istiqamətdə mənfəət normasının yüksəlməsi tikinti sektorunda sahibkarlıq fəaliyyətinin aktivləşməsi ilə nəticələnə bilər.

«SEFCO Consulting Group»un təsisçisi Elmir Səfərli də tikinti işi aparmaq istəyən sahibkarlar üçün icazənin «Bir pəncərə» sistemi ilə verilməsini müsbət qiymətləndirib. Onun sözlərinə görə, bu sistemin tətbiqi beynəlxalq təşkilatların hesabatlarında Azərbaycanın mövqeyini yaxşılaşdırmaqla yanaşı, ölkədə investisiya mühitinə də müsbət təsir göstərəcək: «Çünki investisiya mühitinin əsas elementlərindən biri də məhz tikintiyə icazələrin alınmasıdır. Yəni tikinti xüsusilə də kapital qoyuluşları zamanı ən çox istifadə olunan mexanizmlərdən biridir». Ekspertin fikrincə, belə bir addımın atılması daşınmaz əmlak bazarında müəyyən qədər rəqabət mühitinin yaradılmasına gətirib çıxaracaq: «Çünki istənilən sahibkar tikintiyə asanlıqla icazə ala bilsə, bu, daşınmaz əmlak bazarında, xüsusilə də mənzil inşaatında təklif və rəqabətin artmasına təkan olacaq. Bu isə, heç şübhəsiz, qiymətlərə dolayı olsa da, təsir göstərə bilər».

**F. İKRAMQIZI**

## 2018-ci ilin iyun ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2018-ci ilin may ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsini;
- Aksiz bəyannaməsini;
- Yol vergisi bəyannaməsini;
- Mədən vergisi bəyannaməsini;
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini;
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin iyun ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

• **Daşınmaz əmlak** təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi cari ilin iyun ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

• **Muzdlu işlə əlaqədar** 2018-ci ilin may ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi **cari ilin iyun ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən isə 2-ci rüb üzrə bəyannamə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

• **Xüsusi notarius**ların 2018-ci ilin may ayı üzrə hesabladığı gəlir vergisi **cari ilin iyun ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (cari ilin 2-ci rübü üzrə bəyannamə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Əmlak çıxarışlarının verilməsi sürətləndiriləcək

Nazirlər Kabineti «Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları»na dəyişikliklər edib. Qaydaya «Ərizənin sürətləndirilməklə icra edilməsi» başlıqlı yeni hissə əlavə edilib. Dəyişikliyə əsasən, vətəndaşların təqdim etdikləri ərizə onların istəyi əsasında daha sürətlə icra ediləcək. Nəticədə vətəndaşlar daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatını təsdiqləyən çıxarışları 1, 3 və 7 iş günü müddətində ala biləcəklər. Qeydiyyat prosesi zamanı inventarlaşdırma və digər işlərin aparılmasına ehtiyac yaranarsa, ərizələr 2, 5 və 10 iş günü müddətində icra ediləcək. İpotekanın dövlət qeydiyyatı ilə bağlı ərizələr isə bir və iki iş günü müddətində icra olunacaq. Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatına dair ərizənin sürətləndirilməklə icrası zamanı Əmlak Məsələləri Dövlət Komitəsinin göstərdiyi xidmətlərə görə xidmət haqlarının tarifləri Tarif (qiymət) Şurası tərəfindən müəyyən edilən əmsallarla hesablanacaq.

> Əmlakın qeydiyyatının sürətləndirilməsində məqsəd vətəndaşlara daha operativ xidmət göstərilməsi, məmnunluğun yüksəldilməsi, çevikliyin və rahatlığın artırılmasıdır

Əmlakın qeydiyyatının sürətləndirilməsində məqsəd vətəndaşlara daha operativ xidmət göstərilməsi, məmnunluğun yüksəldilməsi, çevikliyin və rahatlığın artırılmasıdır. Qaydalarda edilən dəyişikliklər və onların icrası daşınmaz əmlakın qeydiyyatı sahəsində prosedurların sadələşdirilməsi və burada tətbiq edilən texnoloji yeniliklər sayəsində mümkün olub. Əmlak çıxarışlarının daha sürətli verilməsi müasir həyatımızın əsas çağırışlarından olan çevik proseslərə və biznes əməliyyatlarına tələbatın ödənilməsinə imkan verəcək. Bu yenilik daşınmaz əmlakın qeydiyyatı sahəsində xidmətlərin keyfiyyətinin və səmərəliliyinin artmasına, daha çox insanın rahatlıqla mülkiyyət üzərində hüquq sahibi olmasına şərait yaradır.

Bu prosesdə davamlı yeniliklərin tətbiqi, innovasiyalardan geniş istifadə olunması nəticəsində hazırda vətəndaşlar çıxarışlarını elektron şəkildə də ala bilərlər. Elektron çıxarış sisteminin tətbiqi qeydiyyat prosesinin tam olaraq avtomatlaşdırılmasına imkan verir. Daşınmaz əmlakın dövlət reyestrindən elektron imza ilə təsdiqlənən çıxarış Elektron Hökumət Portalında yerləşdirilir və portal vasitəsilə hüquq sahibi tərəfindən elektron üsulla əldə edilir. Daşınmaz əmlakın dövlət reyestrindən kağız formada təqdim olunan çıxarışda göstərilən məlumatlar elektron çıxarışda da əks olunur.

**RƏŞAD**

# Avropa İttifaqı Azərbaycana texniki dəstək göstərməyə hazırdır

Azərbaycan Avropa İttifaqı ilə energetika sektorunun inkişafına dair strateji sənədlərin hazırlanması metodologiyasına dair müzakirələr aparıb. Energetika Nazirliyindən bildirilib ki, nazirlikdə energetika sektorunun inkişafına dair strateji sənədlərin hazırlanması metodologiyası ilə bağlı Avropa İttifaqının ekspertləri və «Azərenerji» ASC, «Azərişıq» ASC və «Azəristiliktəchizat» ASC, eləcə də SOCAR-ın nümayəndələrinin iştirakı ilə seminar keçirilib.

Energetika nazirinin müavini Samir Vəliyev «Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi»ndə energetika sektorunda islahatlarla bağlı əksini tapmış tədbirlərin həyata keçirilməsi üçün müvafiq strateji əhəmiyyətli sənədlərin hazırlanmasının vacibliyindən danışıb. Bildirib ki, bu məqsədlə strateji sənədlərin hazırlanması metodologiyası üzrə beynəlxalq təcrübənin öyrənilməsinə ehtiyac vardır.

Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirən qurumun Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas isə son vaxtlar «EU4Energy» Proqramı çərçivəsində Beynəlxalq Enerji Xartiyasının texniki dəstəyi ilə həyata keçirilən layihələrdən bəhs edib. O, «Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında» qanun layihəsinin ardınca energetika sektorunda digər strateji xarakterli sənədlərin hazırlanmasına da texniki dəstək göstərməyə hazır olduqlarını bildirib.

## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin «195-1» Çağrı Mərkəzinə**, ww.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## Almaniya gələn il gəlir vergisinin dərəcəsini azalda bilər

Ölkənin maliyyə naziri Olaf Şolts qeyd etmişdir ki, hökumət 2019-cu il üçün vergi münasibətlərini tənzimləməklə əhalidən tutulan gəlir vergisi yükünü bir qədər yüngülləşdirə bilər. Nazir bu bəyanatı verərkən qarşıdakı illərdə vergi daxilolmalarının planlaşdırılmış hədlərdən artıq olacağını nəzərə almışdır.

Vergi daxilolmaları üzrə son rəsmi qiymətləndirmələrə əsasən, federal gəlir 11 milyard dollara yaxın olacaqdır ki, bu da altı ay əvvəl aparılmış qiymətləndirmədəki proqnozdan yüksəkdir. Bununla belə, Şolts bildirmişdir ki, vergi daxilolmalarında artım, büdcədə profisit əldə edilməsi və iqtisadiyyatın möhkəmlənməsi müşahidə olunsa da, Transatlantik ticarət gərginliyi şəraitində hökumət təmkinli maliyyə siyasətini davam etdirəcək.

Keçən ay Almaniyanın İqtisadiyyat İnstitutunun əməkdaşı Timo Uolmerşauzer qeyd etmişdi ki, bu ilin əvvəlində hakim partiyalar tərəfindən işlənib hazırlanmış hökumət proqramı gəlir vergisi sahəsində gözlənilən irəliləyişlərə imkan verməyəcək. Çünki proqramda gəlir vergisi ilə bağlı islahat, eləcə də digər ölkələrin əldə etdikləri təcrübələr nəzərə alınmamışdır. «Daha dəqiq desək, hazırlanmış proqram ABŞ-da, eləcə də Fransada və Böyük Britaniyada korporativ verginin azaldılmasına hər hansı reaksiya vermək imkanından məhrumdur», - Timo Uolmerşauzer demişdir.

## Yunanıstanın vergi sistemi haqqında hesabat nəşr olunub

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) son hesabatında Yunanıstan hökumətinə vergi bazasını genişləndirmək və vergi ödəməkdən yayınma hallarının qarşısının alınması üçün daha ciddi və sərt tədbirlər görmək təkidlə tövsiyə edilmişdir.

Bu tövsiyələrə Yunanıstanın əməl etmək istiqamətində atdığı addımları təqdir edən hesabatda qeyd olunmuşdur ki, ölkənin vergi sistemi hələ də yüksək vergi dərəcələrinə və dar vergi bazasına əsaslanır ki, bu da vergidən yayınma hallarının kütləvi şəkildə baş verməsinin nəticəsidir. Təşkilat vergidən yayınmaya qarşı mübarizəni gücləndirməyi tövsiyə etmişdir. Tövsiyədə qeyd olunmuşdur ki, bu mübarizəni risklərin təhlilinin və məqsədli vergi yoxlamalarının təkmilləşdirilməsi, vergi qanunvericiliyinə könüllü əməletmənin stimullaşdırılması üçün tədbirlərin gücləndirilməsi yolu ilə aparmaq mümkündür.

Hesabatda Yunanıstan hökuməti sosial yönümü olmayan əlavə dəyər vergisi bazasının dar olduğuna görə tənqid edilmiş, kazinolara və mağazalara, poçt xidmətlərinə, mehmanxana fəaliyyətlərinə güzəşt verilməsi ilə bağlı ciddi iradlar göstərilmişdir. Təşkilatın mövqeyinə görə, işləməyənlərin kredit almalarının davam etməkdə olan problemlərinin həlli üçün OECD tərəfindən tövsiyə edilmiş banklara vergi kreditləri müəyyənləşdirilməlidir.

Sənəddə Yunanıstanda qüvvədə olan vergi sistemi ilə bağlı ciddi tənqidi məqamlar olmasına baxmayaraq, təşkilatın ekspertləri hesab edirlər ki, keçən il ölkədə yeni müstəqil gəlirlər agentliyinin yaradılması irəliyə doğru düzgün istiqamətdə atılmış iri addım olmuşdur.

## Yeni verginin tətbiqinə hazırlıq görülür

Moldovala dövlətə ödənilən vergilər və yığımlar ilə yanaşı, avqust ayından yeni vergi də tətbiq ediləcək. Həmin ay qüvvəyə minəcək yeni qanunvericiliyə əsasən, müvəqqəti xarakter daşıyan gündəlik işləri yerinə yetirən fəhlələr üçün işəgötürən (sifarişçi) tərəfindən büdcəyə vəsait ödənilməlidir.

Moldovanın millət vəkili, parlamentin İqtisadiyyat, büdcə və maliyyə komissiyasının üzvü Ştefan Kryanqe demişdir: «Biz avqust ayına qədər hökumətdən Vergi Məcəlləsində dəyişikliklər aparmağı gözləyirik. İşəgötürən gündəlik əsasda çalışan işçilərin əməkhaqqına müvafiq olaraq müyyən dərəcə üzrə büdcəyə vəsait ödəməlidir. İndiki vəziyyət belədir ki, sifarişçi günəmuzd işçinin xidmətindən istifadə edir, lakin bunun qarşılığı olaraq dövlətə heç bir vəsait ödəmir. Təklif edilən yenilik vergi inzibatçılığı üçün mühüm alət olacaq».

## Koreyada əcnəbi vergi ödəyiciləri üçün təlimat nəşr edilib

Cənubi Koreya Respublikasının Milli Vergi Xidməti xarici ölkə vergi ödəyiciləri üçün ingilis dilində təlimat hazırlayaraq nəşr etmişdir. Məqsəd ölkədə fəaliyyət göstərən əcnəbilərin vergi qanunvericiliyinə əməl etmələrini asanlaşdırmaqdır.

Təlimatda fiziki şəxslərin gəlir vergisi ilə bağlı öhdəlikləri, eləcə də rezident vergi ödəyiciləri ilə qeyri-rezident vergi ödəyiciləri arasındakı fərqlər izah edilmişdir. Sənəddə göstərilmişdir ki, Koreyada beş ildən az yaşamış əcnəbi vətəndaşlar xarici mənbələrdən əldə etdikləri gəlirlərdən yalnız o vaxt vergi ödəməlidirlər ki, həmin gəlirlər Cənubi Koreyaya köçürülmüş olsun.

Ölkə ərazisində 183 təqvim günü və ya ondan artıq müddətdə yaşayan və ya qeydiyyatda olan şəxslər rezident vergi ödəyiciləridir, qeyri-rezidentlər isə 183 təqvim günündən az yaşayan əcnəbilərdir. Təlimatda qeyd edilmişdir ki, hazırki Koreya qanunvericiliyinə əsasən, qeyri-rezident vergi ödəyicilərinin daxili mənbələrdən əldə etdikləri gəlirlərdən vergi tutulur və onlara 19 faizlik vahid vergi dərəcəsi tətbiq edilir. Rezidentlər üçünsə əhalinin gəlir vergisi ilə bağlı standart rejim tətbiq olunur ki, şərtlərdən asılı olaraq gəlir vergisinin dərəcəsi 6 faizdən 40 faizədək dəyişir. Rezidentlərə müəyyən vergi çıxılmaları da tətbiq oluna bilir.

Təlimatda, həmçinin, keçən il Koreyanın vergi qanunvericiliyində aparılmış dəyişikliklərin mahiyyəti barədə sadə dildə yığcam məlumat da verilmişdir.

## Özbəkistan qonşularla iqtisadi əlaqələri gücləndirir



2016-cı ilin sonunda Şavkat Mirziyayev Özbəkistan Prezidenti seçiləndən sonra ölkənin öz yaxın qonşuları ilə iqtisadi əlaqələrində böyük canlanma müşahidə edilməkdədir. Qazaxıstandan Özbəkistana ixrac 35 faiz artaraq 1,3 milyard dollara çatmışdır. Özbəkistandan Qazaxıstana idxalın səviyyəsi də nəzərəçarpacaq miqyaslarla artımışdır. İdxalda artım 25,1% və ya 735,2 milyon dollar olmuşdur. 2018-ci ilin planlarına əsasən, bu ölkələr arasında mal dövriyyəsinin həcmi 3 milyard dollara çatmalıdır. Hazırda iqtisadiyyatda müşahidə edilən dinamika nəzərə alınmaqla, 2020-ci ilə qədər bu sahədə qarşıya qoyulmuş hədəfə çatmaq - mal dövriyyəsinin həcmini 5 milyard dollara yüksəltmək real görünür.

Ekspertlər iki ölkə arasında iqtisadi əlaqələrdən danışarkən diqqəti ənənə faktoruna da çəkirlər. Bu iki ölkə arasında ümumi kəsişmə nöqtələri çoxdur: coğrafi yaxınlıq, oxşar mədəniyyət, tarix, insanların dünyagörüşü və mentaliteti, iqtisadiyyatın təbii resurslara bağlılığı və s. Özbəkistan üçün Qazaxıstanın Avropa və Asiya iqtisadi proseslərinə inteqrasiyası mühüm əhəmiyyət daşıyır. Hazırda Qazaxıstan Dünya Ticarət Təşkilatının üzvüdür və Özbəkistan da öz yaxın qonşusunun təcrübəsindən istifadə etməklə bu quruma üzv olmaq niyyətindədir. Qazaxıstan Çinlə əlaqələrdən və özünün Avropa ilə Asiya arasındakı yolda tranzit baxımından əlverişli coğrafi mövqeyindən daha çox istifadə edir.

Beləliklə, ikitərəfli əlaqələr Orta Asiyanın bu iki iri dövlətinin əməyin beynəlxalq bölgüsündə iştirak və inteqrasiya baxımından daha geniş və güclü potensiala malik prosesin bir hissəsi kimi özünü göstərir. İki ölkə arasındakı əməkdaşlıq çərçivəsində yalnız 2017-ci ildə imzalanmış ticarət sazişlərinin məbləği 1 milyard dollardan artıq olmuşdur.

Hazırda ərzaq, kimya və neft-kimya məhsulları tədarükü ilə məşğul olan dörd birgə ticarət evi fəaliyyət göstərir. Əczaçılıq sahəsində də ayrıca bir ticarət evinin yaradılması ilə bağlı sənədlər imzalanmışdır və yaxın vaxtlarda onun da işə başlayacağı gözlənilir.

Avtomobil sənayesi sahəsində xarici bazarlara, əsasən də Avrasiya İqtisadi İttifaqına daxil olan ölkələrə birgə ixrac üzrə ümumi layihə həyata keçirilir. Kostanay şəhərində elektrik mühərriki ilə işləyən avtomobillərin birgə istehsalına başlanmışdır.

Proseslərin perspektivi aydın göstərir ki, qarşılıqlı iqtisadi əməkdaşlıq yalnız göstərilən sahələrlə məhdudlaşmayacaq. Nəqliyyat və loqistika sahəsində birgə fəaliyyət hər iki ölkə üçün müstəsna əhəmiyyət daşıyır: Çinin həyata keçirdiyi «Yeni ipək yolu» adlanan qlobal layihəyə qoşulmaq imkanı yaradır. Bu perspektiv də nəzərə alınaraq Qazaxıstan və Özbəkistan arasında dəmiryolu və hava nəqliyyatının birgə inkişaf etdirilməsi barədə razılaşmalar əldə edilmişdir.

Hazırda beynəlxalq nəqliyyat-loqistika mərkəzinin («Quru liman»ı) inşa edilməsi planı nəzərdən keçirilir.

2017-ci ildə dəmir yolu nəqliyyatı vasitəsilə qarşılıqlı daşımaların həcmində 8 faizlik artım olmuşdu. Bu ilin yanvar-fevral aylarında isə keçən ilin analoji dövrü ilə müqayisədə daşımaların həcmində 44 faizlik artım qeydə alınmışdır.

Əhalinin müxtəlif qrupları arasında bilik mübadiləsi, elmi və mədəni əlaqələr də sıx iqtisadi əməkdaşlığa şərait yaradan amillərdəndir. Qazaxıstanın müntəzəm olaraq regionlararası əməkdaşlıq forumu keçirmək barədə təşəbbüsü qəbul edilmişdir.

2018-ci il Qazaxıstanda «Özbəkistan ili» elan edilmişdir. Bu aksiya çərçivəsində iqtisadiyyat, turizm, mədəni-humanitar mübadilə sahələrində 200-dən artıq tədbirin keçirilməsi planlaşdırılmışdır.

2019-cu il isə Özbəkistanda «Qazaxıstan ili» elan ediləcək.

## «Açıq qapı günləri» aksiyası özünü doğruldub

Rusiya vətəndaşları vergi müfəttişliklərində təşkil edilmiş «Açıq qapı günləri» çərçivəsində fiziki şəxslərin gəlir vergisi üzrə 500 minə yaxın bəyannamə təqdim etmişlər. Bununla da dövlət büdcəsinə ödənilməli olan vergilərin ümumi həcmi 16 milyard rublu (436,8 milyon manat) keçmişdir.

Rusiya Federasiyasının Vergi Xidmətinin mətbuat xidmətinin məlumatına əsasən, gəlir vergisi üzrə bəyannamələri təqdim edənlərin üçdə ikisi sosial və əmlak çıxılmalarını bəyan etmiş fiziki şəxslərdir.

Bundan əlavə, aksiya zamanı 144 min vətəndaş «Vergi ödəyicisinin fiziki şəxslər üçün şəxsi kabineti»nə qoşulmuşdur.

Xatırladaq ki, 23-24 mart və 23-24 aprel tarixlərində Rusiyanın vergi müfəttişliklərində «Açıq qapı günləri» keçirilmişdir.Aksiyada 26 mindən artıq vergi əməkdaşı fəal iştirak etmişdir.

krossvord



**Yuxarıdan aşağı:** 1.Quş və heyvana bənzədilən qanadlı mifik əjdaha; 2.Hərbi-siyasi blok; 3.Bir şeyə diqqət, nəyisə bilmək, öyrənmək həvəsi, meyli, arzusu; 4.Nəfəsli musiqi aləti; 5.«Mixaylo» kimi tanınan Sovet İttifaqı Qəhrəmanı, partizan və kəşfiyyatçı; 6.Böyüklərə, yaşlılara və ya ləyaqətinə, xidmətinə görə birinə göstərilən ehtiram, sayğı; 9.Seçki zamanı səsvermə qutusu; 13.Musiqili video-çarx; 15.Əzələlərin, bəzən əsəblərin və fəqərə sümüklərinin xəstəliyi nəticəsində bel nahiyəsində ağrı, sancı (xəstəlik); 16.Mühasibatda aktiv və passiv hesabların qalıqlarını göstərən və hər hansı bir təsərrüfat və ya müəssisənin müəyyən dövr ərzindəki maliyyə vəziyyətini əks etdirən ümumi cədvəl; 17.Maye yükləri daşımaq üçün böyük gəmi; 18.Neft emalında kondensat nəticəsində alınan ilkin məhsul; 20.C.Cabbarlının əsəri; 21.Cənubi Amerikada çay. **Soldan sağa:** 1.Borulu patefon; 5.Ölkəmizdə şərqdən əsən xəfif yel; 7.Binanın, mənzilin memarlıq və bədii cəhətdən tərtib olunmuş daxili hissəsi; 8.İranda şəhər; 10.Sümüklər arasında əlaqəni təmin edən birləşmə yeri; 11.Bu gün qardaş ölkədə cümhuriyyət bayramı; 12.Neftçala rayonunda qəsəbə; 14.Uşağı yatırmaq üçün beşik başında oxunan nəğmə; 19.«Mənim ağ şəhərim» bədii filmində Murad Muradovun həyat yoldaşı obrazını canlandıran aktrisanın adı; 21.65 milyon insan tərəfindən danışılan və ən az 2000 illik keçmişi olan qədim Dravid dili; 22.Mövsümi meyvə; 23.Dəniz və sualtı üzmə cihazı; 24.M.Füzulinin məşhur qəzəllərindən biri; 25.Venesiyalı qondolyerlərin xalq mahnısı.



Borulu patefon

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Ekstaz; 2.Lanqust; 3.Prima; 4.Orakul; 5.Lobbi; 6.Kvarta; 9.Koma; 13.Nuxa; 15.Boulinq; 16.Uşanka; 17.Broker; 18.Ottava; 20.Metod; 21.Fasad. **Soldan sağa:** 1.Ellipsoid; 5.Lək; 7.Sindibad; 8.Abla; 10.Aruba; 11.Utopist; 12.Stend; 14.Sambo; 19.Şumaxer (Mihael); 21.Faust; 22.NATO; 23.Akustika; 24.Aid; 25.Paradiqma.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev
anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# Velosiped həvəskarlarının səbrsizliklə gözlədiyi çempionata sayılı günlər qaldı

**İyunun 5-də Bakıda velosiped idmanının BMX növü üzrə dünya çempionatı start götürəcək. Çempionatda 60-a yaxın ölkənin müxtəlif yaş qrupları üzrə 2 minə yaxın idmançısının iştirak edəcəyi gözlənilir.**

Cempionatın proqramına əsasən, iyunun 5-7-də «Challenge» qrupuna daxil olan velosipedçilər yarışacaqlar. İyunun 8-9-da isə gənclər və elit kateqoriyasında yarışan BMX ustaları planetin ən güclülərini müəyyən edəcəklər. Mötəbər yarışla əlaqədar Beynəlxalq Velosipedçilər İttifaqı və Avropa Velosipedçilər Birliyinin rəhbər vəzifəli şəxsləri də Bakıya gələcəklər. Yarışları canlı olaraq izləmək istəyən BMX həvəskarları biletləri iticket.az saytı vasitəsilə elektron qaydada və ya Veloparkdakı kassadan ala bilərlər.

İyunun 9-da çempionatın keçici bayrağı 2019-cu ildə bu yarışa ev sahibliyi edəcək Belçikanın nümayəndələrinə təqdim olunacaq. Yarışın əsas təşkilatçılarından olan Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən sifariş olunmuş və Bakı Media Mərkəzi tərəfindən hazırlanmış təqdimat çarxı da artıq sosial şəbəkələrdə yerləşdirilib və böyük marağa səbəb olub.

Hazırda çempionatın keçiriləcəyi Veloparkda son tamamlama işləri aparılır. Dünya çempionatının keçirildiyi günlər Velopark ərazisindəki istirahət və əyləncə zonasında bir sıra maraqlı tədbirlər və konsert proqramı da təşkil olunacaq. Həmin zonalara giriş pulsuzdur. Veloparka 125 və 205 nömrəli avtobuslarla, həmçinin Azneft meydanından hərəkət edəcək xüsusi avtobuslarla getmək mümkün olacaq.




# Cümhuriyyətin 100 illiyi şərəfinə...

Moskvada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və Rusiya Azərbaycanlı Gənclər Birliyinin təşkilatçılığı ilə keçirilən, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş III Universiada başa çatıb. Universiada Heydər Əliyev Kuboku uğrunda mini futbol turniri ilə yekunlaşıb. Moskvadakı Sokolniki İdman Kompleksində keçirilən turnirin qalibi Moskva Dövlət Humanitar İqtisadiyyat Universitetinin komandası olub. İkinci yeri Rusiya Gömrük Akademiyası və Moskva Dövlət Pedaqoji Universitetinin birləşmiş komandası, üçüncü yeri isə Moskva Dövlət Beynəlxalq Əlaqələr Universitetinin komandası tutub.

III Universiada çərçivəsində, həmçinin kişilər və qadınlar arasında voleybol, marafon və stolüstü tennis yarışları da keçirilib. Universiadanın bütün qaliblərinə mükafatlar təqdim olunub.

# Qrizman rəsmən «Barselona»da...



Fransa millisinin və «Atletiko Madrid» klubunun hücumçusu Antuan Qrizman «Barselona» ilə müqavilə bağlayıb. Kataloniyalılar futbolçunun nümayəndəsi sayılan bacısı ilə razılaşma imzalayıblar. A.Qrizman klubda beş dəfə «Qızıl top»un sahibi Leonel Messidən sonra ən çox aylıq ödənişli oyunçu olacaq. O, illik 15 milyon avro olmaqla beş illik müqaviləyə imza atıb. Bundan başqa, «Barselona» «Atletiko» klubuna transfer üçün 100 milyon avro həcmində kompensasiya ödəyəcək. Madrid klubunun baş məşqçisi Dieqo Simyone A.Qrizmanın gedişindən sonra «Lester Siti» klubunun hücumçusu Jems Vardini sıralarına qatmaq niyyətindədir.

# İsveç millisi ötənilki uğurunu təkrarladı

Danimarkanın Kopenhagen və Herninq şəhərlərinin ev sahibliyi etdiyi hokkey üzrə dünya çempionatı başa çatıb. 82-ci dəfə təşkil olunan mundialda dünyanın ən güclü 16 komandası birincilik uğrunda mübarizə aparıb. ABŞ, Kanada, Rusiya və digər titullu komandaları geridə qoyan İsveç və İsveçrə yığmaları çempionatın qızıl medalları uğrunda final qarşılaşmasına çıxıblar.



Gərgin idman mübarizəsi şəraitində keçən oyunun əsas vaxtı 2:2 hesablı heç-heçə ilə yekunlaşıb. Overtaymda da komandalar fərqlənmədiyindən qalib bullit seriyasında müəyyənləşib. Daha təcrübəli İsveç millisinin oyunçusu Filip Frisberqin vurduğu qol birincilərə 3:2 hesablı qələbə qazandırıb və komandası dalbadal ikinci dəfə dünya çempionatının qızıl medalına sahib olub.

Bürünc medal uğrunda görüşdə isə ABŞ və Kanada yığmaları üz-üzə gəliblər. Rəqibini 4:1 hesabı ilə məğlub edən ABŞ hokkeyçiləri dünya çempionatının bürünc medalına sahib olublar. Çempionatın favoritlərindən hesab olunan ABŞ yığması 2015-ci ildən indiyədək ilk dəfədir ki, mükafatçılar sırasında yer alıb. Kanada yığması isə əksinə son üç ildə ilk dəfədir ki, çempionatı mükafatsız tərk edib. Ötən üç dünya çempionatında Kanada millisi iki dəfə qızıl, bir dəfə gümüş medal qazanmışdı. Bu mundialda ABŞ millisinin hücumçusu Patrik Keyn dünya çempionatının rekordunu yeniləyib: o, keçirdiyi 10 oyundan 20 xal toplayıb. Əvvələr bu rekord kanadalı Deni Hitliyə məxsus olub.

Qeyd edək ki, ötən il Almaniya və Fransanın birgə ev sahibliyi etdiyi dünya çempionatının da qalibi İsveç hokkeyçiləri olublar. Növbəti dünya çempionatı gələn il mayın 10-dan 26-dək Slovakiyada təşkil olunacaq.

## mozaika

### tarix

# M.Ə.Rəsulzadənin məktubları...

Mayın 16-da Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyində Cümhuriyyətin qurucularından biri, görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadənin azərbaycanlı mühacir Süleyman Təkinərə yazdığı və muzeyə hədiyyə edilmiş 29 məktubunun təqdimatı olub.

Təqdimat mərasimində muzeyin elmi katibi, tarix üzrə fəlsəfə doktoru Fərhad Cabbarov S.Təkinər haqqında məlumat verib. Qeyd edilib ki, o, Türkiyədə tanınan azərbaycanlı mühacirlərdən biridir. S.Təkinər həm ədəbiyyatçı, jurnalist, həm də publisist kimi fəaliyyət göstərib. S.Təkinərin Bakıda yaşayan varisləri tərəfindən muzeyə hədiyyə edilmiş məktublar 1950-1955-ci illərdə yazılıb. Bu məktublarda M.Ə.Rəsulzadə Azərbaycan mühacirətinin qarşısında duran vəzifələr barədə fikirlərini bölüşür. Həmin məktublar uzun müddət S.Təkinərin ailəsində qorunub saxlanılıb.



Muzeyin direktoru, akademik Nailə Vəlixanlı muzeyə təqdim edilən məktubların elmi araşdırmaların aparılmasında önəmli tarixi mənbələr olduğunu vurğulayıb. Tədbirdə «Əzablı yollarla» filmindən S.Təkinərin M.Rəsulzadə ilə görüşünü əks etdirən fraqmentlər göstərilib. Məktubları muzeyə hədiyyə edən Rauf Həsənov və S.Təkinərin Almaniyada yaşayan qızı Leyla Deqner tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürlərini bildiriblər.

### texnologiya

# Dronlar düyü şitili əkir

Yaponiyanın qərbində yerləşən Hiroşima prefekturasının kənd təsərrüfatı rəsmiləri yaşlı fermerlərin işini yüngülləşdirmək məqsədilə düyü şitillərinin dron vasitəsilə əkinini sınaqdan keçiriblər.

Hiroşima Hiqaşi şəhərində yerləşən kənd təsərrüfatı kooperativində sınaq zamanı şitillərin olduğu konteynerin üzərində yerləşən operator iki metr hündürlükdən onları əkin sahəsinə yayıb. Ümumi sahəsi 2 min kvadratmetr olan düyü sahəsinə şitillərin əkilməsi cəmi 10 dəqiqə vaxt aparıb. Bu, adi halda həmin sahənin əkilməsi üçün lazım olan vaxtdan altı dəfə azdır.

### fotomüsabiqə

# «Mən Azərbaycanı sevdim»

Ölkəmizin keçdiyi tarixi yolu, qazandığı uğurları və inkişafı nümayiş etdirmək və bu yüksəlişə əcnəbi vətəndaşların münasibətini təqdim etmək məqsədilə Azərbaycan Fotoqraflar Birliyi (AFB) «Beynəlxalq foto günləri - 2018» layihəsinə qoşulub. Bu münasibətlə «NUR Art House»də «Mən Azərbaycanı sevdim» adlı sərgi və «People» nominasiyası üzrə mükafatlandırma mərasimi təşkil edilib.

Tədbirdə qeyd edilib ki, FIAP-ın tərəfdaşlığı ilə 2017-ci ildən başlanmış və 6 aylıq müddəti əhatə edən «Caucasus - Carpathians circuit - 2017» layihəsi çərçivəsində üç ölkə - Ukrayna, Gürcüstan və Azərbaycanın elan etdiyi birgə beynəlxalq fotomüsabiqəyə 57 ölkədən 383 fotoqrafın 5292 əsəri buraxılıb. Beynəlxalq dərəcəli 9 münsifin təmsil olunduğu münsiflər heyətinin səsverməsi ilə 4 nominasiya üzrə 52 mükafat təsis edilib və 158 fotoqraf mükafatlara layiq görülüb. Sərgidə gürcü fotoqrafların ölkəmizlə bağlı fotoları nümayiş edilib.



Paytaxtımızın üç sərgi salonunda «Beynəlxalq foto günləri - 2018» layihəsi çərçivəsində açılan sərgilərdə sənətsevərlər qalib gəlmiş 52 əsər və müsabiqədə iştirak etmiş 8 azərbaycanlı müəllifin 50-yə yaxın əsəri ilə tanış olublar.

### mədəniyyət

# «Cavad xan» səhnəyə gəlir

İyunun 3-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Əməkdar İncəsənət Xadimi, bəstəkar Sərdar Fərəcovun «Cavad xan» baleti təqdim olunacaq. Əsər Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinə həsr edilib. Balet tamaşası XVIII əsrdə Azərbaycanda baş verən tarixi hadisələrdən bəhs edir. Gəncə əhalisinin başda böyük sərkərdə Cavad xan olmaqla yadelli işğalçılara qarşı qəhrəmancasına mübarizəsi, baletin əsas süjet xəttini təşkil edir.



Yeni səhnə əsərinin quruluşçu baletmeysteri Xalq Artisti Kamilla Hüseynova, libretto müəllifi Əjdər Ulduz, musiqi rəhbəri və dirijoru Xalq Artisti, professor Cavanşir Cəfərov, quruluşçu rəssamı isə Xalq Rəssamı Rafiz İsmayılovdur. Səhnə əsərində rolları Xalq artisti Gülağası Mirzəyev (Cavad xan), Əməkdar artistlər Nigar İbrahimova (Cavad xanın həyat yoldaşı), Samir Səmədov (general Sisianov), Makar Ferştandt (I Aleksandr) və aparıcı solist Ayan Eyvazova (gürcü şahzadəsi) ifa edəcək.

### cəmiyyət

# Dəniz mövsümü gəldi...

Yay aylarında çimərliklər ən çox üz tutulan istirahət məkanlarından sayılır. Təbii ki, dəniz suyunun təmizliyi sular qoynunda istirahəti sevənləri maraqlandıran məsələlərdən biridir.



Respublika Gigiyena və Epidemiologiya Mərkəzi çimərliklərin monitorinqinə başlayıb. Dövlət sanitariya orqanı Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xəzər monitorinq idarəsinin əməkdaşları ilə birgə müvafiq sərəncama əsasən inzibati rayonların ərazisində fəaliyyət göstərən çimərliklərdə laborator tədqiqatlar aparacaq. İlk növbədə, yerlərdə kommunal şöbələrin həkimləri sahilyanı zolaqlarda sanitar-gigiyenik vəziyyəti öyrənəcəklər.

Mərkəzin şöbə müdiri Ziyəddin Kazımovun dediyinə görə, Xəzər monitorinq idarəsinin nümayəndələri ilə dəniz suyundan götürülən nümunələrin laborator analizləri əsasında onun fiziki-kimyəvi xüsusiyyətləri, bakterioloji, toksikoloji və radioloji göstəriciləri təhlil edildəndən sonra yekun nəticələrə əsasən qərar veriləcək. 2010-cu ildə Baş Dövlət sanitar orqanı tərəfindən verilən 83 nömrəli qərara əsasən Qaradağ rayonundakı Sahil çimərliyi və Səbail rayonundakı Şıx çimərliyinin inzibati ərazilərinə təhkim olunanlara dəniz suyunda çimməyə icazə verməmək tapşırılıb, çünki həmin ərazilərdə dəfələrlə aparılan monitorinqlərin nəticələrinə görə bağırsaq çöpləri aşkar edilib. Belə bir təhlükənin mövcudluğu kütləvi mədə-bağırsaq xəstəliklərinin yayılmasına səbəb ola bilər.

Həmin ərazilərdə dəniz suyunun təmiz çıxmamasının səbəbi ətrafdakı yaşayış məhəllələrindən kanalizasiya və çirkab sularının birbaşa Xəzərə axıdılmasıdır.

### Müdriklər deyib ki...

*«Tanrıya qulluq etməyin ən məqbul yolu insanlara yaxşılıq etməkdir».*

*Bencamin Franklin (1706-1790)*

